**FİRDOVSİ SARVANLI**

# HƏR BİR ŞƏHİD VƏTƏNDİR

**BAKI – 2021**

**Fotoqraf: Emin Xaliqoğlu**

**Texniki redaktor: Elnurə Abuşova**

**FİRDOVSİ SARVANLI**
S25 **"HƏR ŞƏHİD BİR VƏTƏNDİR".** Bakı,
**«APOSTROF-A»,** 2021, səh 120.

Bu kitab I və II Qarabağ döyüşlərində canlarını fəda etmiş Salyan rayonunun Sarvan kəndinin şəhid övladlarına həsr olunub. Kitabda həmçinin müəllifin vətənpərvərlik mövzusunda yazdığı şeirlər və poema, qazi və qəhrəmanlar haqqında yazılar öz əksini tapıb.

**© FİRDOVSİ SARVANLI, 2021**

**ÖN SÖZ**

## "Şəhidlik - Tanrıya yaxın olan ən uca məqamdır..."

Şair, publisist, mənə görə dünyanın ən xeyrixah insanı olan, dostum, Firdovsi Sarvanlının "Hər bir şəhid Vətəndir" kitabına ön söz yazmağı, dəyərlimiz Elnurə xanım Abuşova mənə məsləhət biləndə, doğrusu, çox sevindim. Ona görə ki, bu kitabı, uzun müddətdən bəri tanıdığım bir insan, o insan ki, bütün varlığıyla Vətəninə, elinə bağlı olan şair, Salyan torpağının yetirməsi olan gözəl ziyalımız Firdovsi Sarvanlı yazmışdı.

İkinci tərəfdən, onun yazdığı bu kitab adi kitablardan deyildi. 30 ildən artıq gözlədiyimiz, hətta, yuxularımızı belə ərşə çəkən, düşmən tapdağı altında olan torpaqlarımızın azadlığı uğrunda canlarını qurban verən Şəhidlərimiz haqqında yazılmışdi, bu kitab. O Şəhidlər ki, alnımıza vurulan xəcalət damğasını bir anın içindəcə öz pak qanlarıyla yuyaraq, bizim mürgü vuran vicdanımızı qəflət yuxusundan oyatdılar və millətimizin adını tarixin şanlı səhifələrinə yazdılar.

Fərqi yoxdur, bu Şəhidlər hansı bölgədə, hansı rayonda doğulub, boya-başa çatmışdılar. Əsas odur ki, onlar Azərbaycanımız, doğma yurdumuz, torpaqlarımızın azadlığı uğrunda Şəhid oldular.

Firdovsi Sarvanlının "Hər bir şəhid Vətəndir" kitabının ilkin variantını oxudum. Onu da deyim ki, bu kitab Firdövsi Sarvanlının sayca 4-cü kitabıdır. Həm də, bu kitabdan öncə Firdovsi müəllim Birinci Qarabağ müharibəsi zamanı Şəhid olan Salyan rayonunun Sarvan kəndinin 11 nəfər Şəhidi haqqında "Sarvan Şəhidləri" kitabının da müəllifidir. 44 günlük Böyük Vətən müharibəsində də, Sarvan kəndinin say-seçmə oğulları könüllü olaraq döyüşə atılmış və bu döyüşdə onlardan 6 nəfəri qəhrəmancasına Şəhid olmuş və doğma Sarvan kəndinin qəbristanlığında dəfn olunmuşlar.

Şəhidlik ən uca zirvədir. Şəhidlik ən müqəddəs bir məqam və əbədi olaraq yaddaşımıza həkk olunan bir addır. Bu addan uca, bu addan müqəddəs qeyri bir ad biz tanımırıq.

Müəllif ütün əsər boyu bu adın müqəddəsliyini, şərəfli bir ad olduğunu qələminin gücüylə oxuculara şeir diliylə, bayatıyla, nağılvari, ağıyla, çatdırmağa çalışır və sonda bu istəyinə çatır.

Firdovsi Sarvanlı bu kitabını yazmaqla, təkcə Salyan rayonunun Sarvan kəndinin Şəhidlərini anmır, o, torpaqlarımız uğrunda qəhrəmancasına həlak olan, canını Vətən yolunda qurban verən bütün Şəhidlərimizi yad edir, onların ruhunu sevindirir, yaxınlarının yaralarına bir məlhəm olur.

Şəhidlərimizi yad etmək, onların qəhrəmanlıqlarını tərənnüm etmək və gələcək nəsillərin yaddaşlarına çatdırmaq hər birimizin müqəddəs borcu, ali məqsədi olmalıdır. Ona görə ki, 44 günlük Vətən müharibəsində igid oğullarımız elə böyük qəhrəmanlıqlar, elə şücaətlər göstərdilər ki, doğurdan da, bu bizim özümüzə indi bir yuxu kimi gəlir. Kim inana bilərdi ki, otuz ildən artıq bir dövrü əhatə edən müqəddəs torpaqlarımızın işğalı 44 günlük qısa bir fasilədə işğaldan azad olunsun.

Biz bu savaşda 3000 minə yaxın igid oğullarımızı Şəhid verdik. Yurdumuzun hər bölgəsindən neçə-neçə igid oğullarımız qəhrəmancasına Şəhid olaraq, haqqın dərgahına qovuşdular. Yüzlərlə Qazilərimiz, yaralı döyüşçülərimiz bu savaşda öz sağlamlıqlarını itirdilər.

Müharibə təkcə maddi itkilərlə ölçülmür. Onun insanların həyatına, mənəviyyatına vurduğu ağır zərbələrin yeri uzun illər görünür. Müharibənin adı hər hansı bir mənada hallanırsa hallansın, müharibə itki, ölüm və göz yaşı deməkdir!..

Yaşadığım Cəlilabad rayonundan da, bu, 44 günlük Vətən müharibəsində 97 nəfər igid oğlumuz Şəhadətə qovuşdu. Vətən, topaq uğrunda həlak olan hər bir əsgərimiz hər birimizin nəvəsi, oğlu, qardaşı, əzizi, qohumu və ümumilikdə Şəhidimizdir.

Firdovsi Sarvanlının qələmə aldığı “Hər bir şəhid Vətəndir” kitabı, inanıram ki, bizim üçün müqqəddəs bir kitab olacaq və hər bir Şəhid oğlumuz, hər birimizin qəlbində vətənə cevriləcəkdir.

Sözümün sonunda, əziz dostum, Firdovsi Sarvanlıya yaradıcılıq uğurlar arzulayır və Müqəddəs Şəhidlərimizə isə Allahdan rəhmət diləyirəm.

***Meyxoş Abdullah***
*Yazıçı*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü,*
*Prezident Təqaüdçüsü*

## MÜƏLLİFDƏN...

Əziz oxucularım, sizə təqdim etdiyim bu kitab sayca 4-cüdür. Birinci Qarabağ Müharibəsi zamanı doğulub boya-başa çatdığım Salyan rayon Sarvan kəndində 11 şəhid var idi. Onların döyüş və ömür yollarına həsr olunmuş “Sarvan şəhidləri“ kitabım rəğbətlə qarşılandı. Böyük Vətən Müharibəsi başlayanda müzəffr ordumuz əks hücumla cavab verəndə yenə kəndimizə qanları ilə tarix yazan şəhidlər gəldi.

Həmkəndlim, dostum, Birinci Qarabağ Müharibəsi iştirakçısı Qazi Buludxan Eldaroğlu məndən xahiş etdi ki, bütün şəhidlərimizin həyat yolunu əks etdirən Qələbə ruhlu yeni bir kitab yazam. Vətən Müharibəsinin 44 günündə kəndimizin 5 igid qəhrəman oğlu şəhid oldu.

1. İbrahimov Zəmanət Gülhəsən oğlu
2. Babayev Alməmməd Qərib oğlu
3. İsmayılov Aslan Əvəz oğlu
4. Əzizli Tacəddin Şahəddin oğlu
5. İsmayılov Cavad Asif oğlu

Uzun illər dillər əzbəri olan bayatım kiçik dəyişikliklə belə səslənir:

Torpaq üçün alış, yan,
Ömür olsun firəvan.
On altı şəhidiylə
Qəhrəman kənddi Sarvan.

Əziz oxucularım, “Sarvan şəhidləri“ kitabında şəhidlərimizin keçdiyi döyüş yolu, qəhrəmanlıq yolu geniş əks olunmuşdur. Bu beş şəhidlərimin də həyatı gənclərimizə örnəkdir.


İLHAM ƏLİYEV

## ADIN TARİXİM OLDU

*Müzəffər Məzahim*

Ey milli qəhrəmanım, Ali Baş Komandanım,
Səninlə fəxr edir bütöv Azərbaycanım.
Yenilməz qətiyyətin, iradən, əzmin, gücün,
Haqqın mizanındadır bu gün qisasın, öcün
Ən ali mükafatlar, ən uca rütbə sənin,
Dilimizdə dualar, müqəddəs xütbə sənin,
Azadlıq yollarımız bürünmüşdü dumana,
Xalqımızın gücünü bəyan etdin cahana.
Birliyə, həmrəyliyə səslədin millətini,
Dost da, düşmən də gördü dönməz qətiyyətini.
Uyumuş xəyalları çevirdin həqiqətə,
Yurdsevərlik öyrətdin bütün bəşəriyyətə.
Bu millət təşnə idi azadlığa, zəfərə,
İnam çeşməsi verdin əzminlə hər nəfərə.
Müqəddəs amalındır yurdumuzun birliyi,
Əsərin – xalqımızla ordumuzun birliyi.
Qaytardın millətimin qürurunu özünə,
Təpər verdin dizinə, nur elədin gözünə.
Sevindi Qarabağın dağı, düzü, oylağı,
Hər çiçəyi, hər gülü, hər qışlağı, yaylağı.
Bəxş etdin qələbəni xalqıma həyat kimi,
Payladın səadəti, sevinci nobat kimi.
Qızıl hərflərlə adın tarixinə qazıldı,
Qüdsal qəhrəmanlığın qəlbimizə yazıldı.

Hörmətli şairimiz Müzəffər müəllimə bu şeirə görə çox təşəkkür edirəm. Həqiqətən də cənab Prezident İlham Əliyev tarix yazdı. Uzun Həsən, Şah İsmayıl, Nadir şah və İlham Əliyev – 20020-ci ildən sonra 4-cü fateh.

Həmkəndlim Hacı Natiq maraqlı fikir söylədi ki, İlham Əliyev xristian ölkəsindən torpaq alan ilk tarixi şəxsiyyətdir.

# SARVAN ŞƏHİDLƏRİ ONLARI SİZ DƏ TANIYIN

## ŞƏHİDLƏRİN QIŞ NAĞILI

Kənd-kəsək bir balaca özünə gəlmişdi. Sanki həyat öz axarı ilə gedirdi. El-oba toy-düyünə hazırlaşırdı və birdən heç kəsin gözləmədiyi bəd xəbər qara örpəyə dönüb kəndin üstünü aldı: Zümrüd və Həsrəddin şəhid olublar.

Beləcə, kəndin qış nağılı başladı... İki dost, iki yoldaş, iki qonşu, iki həmkəndli Ağdam torpağında qəhrəmancasına şəhid olublar. Yer-göy, ana-bacı, qardaş fəryadından qan ağladı. Kənd belə izdiham, qələbəlik görməmişdi. Bütün rayon, qonşu kəndin camaatı bu ağır faciəyə şərik olmaq üçün Sarvan kəndinə gəlmişdilər.

Kimdir Zümrüd? Kimdir Həsrəddin? Kimdir bu qış nağılının şəhid qəhrəmanları?

## ZÜMRÜD FƏRZİ OĞLU MEHDİYEV




1960-cı il dekabr ayının 28-də Sarvan kəndində anadan olmuşdur.

Təzəcə ailə qurmuşdu. Çörək dalınca Rusiyanın bir neçə şəhərinə üz tutmuşdu. Atasının ölümündən sonra birdəfəlik kəndə qayıtdı. Bir müddət fotoatelyedə işlədi. Zümrüd bütün camaatın xatirində toy-düyündə əlində fotoaparat maraqlı anları lentə köçürən bir şəxs kimi qalacaqdır. Zümrüd Sarvan

kənd orta məktəbində işləyirdi.

Bu sətirləri yazarkən hər gün Zümrüdün mənə “Sabahın xeyir” deməsi yadıma düşür. Müəllimləri də, şagirdləri də hər gün birinci o qarşılayırdı.



Torpaq üzərində yaşayırıqsa, onu düşməndən qorumalıyıq. Bu həqiqəti Zümrüd dərk etdiyindən çağırışdan yayınmadı, döyüşdən qaçmadı. Silaha sarılıb silahdaşlarıyla erməni faşistləri ilə mübarizəyə qalxdı. Zümrüdün çoxlu dostu, tanışı var idi. İş elə gətirmişdi ki, əziz dostları — Cavanşir və Həsrəddin ilə bir cəbhədə döyüşməli olmuşdu, özü də komandir kimi. Zümrüd çavuş rütbəsində dostları ilə birgə döyüşürdü...

## ABUŞOV HƏSRƏDDİN ABIŞ OĞLU



Həsrəddinin tərcümeyi-halı çox sadədir. 1962-ci ilin 17 yanvar tarixində dünyaya göz açmışdır. Peşə məktəbini bitirib. Hərbi xidmətdə olub, kolxozda suçu işləyib. Suçu işləmək onun üçün xoş idi. Çünki atası Abış kişi ilə birgə idi. Onlar təkcə ata-oğul yox, həm də əsl dost, yoldaş idilər. Axı, günün çox hissəsini birgə işləyib, istirahət edib, deyib-gülürdülər. Ömrünü zarafatla, məzəli söhbətlərlə keçirən Abış kişini yandıran odur ki, o, həm də sevimli dostunu itirmişdi. Həmin dövrlər cansıxıcı günlərdə başsağlığına gələnlər dərddən qədd-qaməti əyilən Abış kişini və

ömrünü uşaqların tərbiyəsinə sərf edən Əyyub müəllimi - Zümrüdün ata əvəzinin iki məzar arasındakı görüşünü (Allah, bu görüş idi?) heç vaxt unutmayacaqlar. Dərd-sər bu iki insanı bir-birinə elə birləşdirmişdi ki, göz yaşları, sızıltılar Həsrəddin və Zümrüd görüşünü xatırladırdı. Həsrəddin Vətənin bu ağır günlərində düşmənə sarsıdıcı zərbə endirmək üçün Ağdamın Suma kəndi uğrunda dostu Zümrüdlə birgə şəhid oldu. O qanlı döyüşün şahidi sarvanlı Cavanşir Əliyevin dediklərindən:



- Biz noyabr ayının 17-də Gəncə şəhərinə yola düşdük. Orada bizi batalyonlara böldülər. Mən Həsrəddin və Zümrüdlə birgə üçüncü minomyot rotasına düşdük. Bölmə komandirimiz Zümrüd idi. Biz ona hörmət edir, hər sözünə qulaq asırdıq. Yanvarın 2-də axşam həyəcan siqnalı verildi və biz Gəncədən çıxıb Ağdamın Suma kəndinə gəldik. Yanvarın 5-də döyüş bölməsinə getdik. Biz ilk dəfə idi ki, şiddətli döyüşə atılırdıq. Döyüşdə Zümrüd də, Həsrəddin də xüsusi faallıq göstərirdilər. Yanvarın 6-da döyüşlər daha da şiddətləndi. Ermənilər böyük qüvvə ilə hücuma keçmişdilər. Şiddətli döyüş gedirdi. Biz xeyli erməni quldurunu məhv etdik. Döyüş səngidi. Növbəmizi dəyişmək və istirahət etmək üçün yaxındakı evə girməli olduq. Biz həm də islanmışdıq. Elə bu zaman ev güclü raket

atəşinə tutuldu. Zümrüd bircə an içində şəhid oldu. Mən maşın dalınca mərkəzi yola qaçdım. Qayıdanda gördüm ki, Həsrəddin də şəhid olub. Mən də güclü raket atəşindən kontuziya aldım, hər iki dostumu düşmən əlinə verməmək üçün onları döyüş yerindən arxaya apardım.

Həyat yoldaşı Gülşən xanım o ağır günləri belə xatırlayır: "Həsrəddinin şəhid xəbərini eşidəndə həyatımdan tamam bezdim. İş bu yerə çatmışdı ki, həyatıma qəsd etmək fıkrindəydim. Amma uşaqları fikirləşəndə fikrimdən daşındım,  "uşaqların xətrinə yaşamağa dəyər" – dedim. İndi mən uşaqları elə böyütməliyəm ki, onlar öz şəhid ataları ilə fəxr etsinlər. Onlar bilməlidirlər ki, ataları vətən yolunda qəhrəmancasına şəhid olmuşdur. Bircə narahatçılığım qəbirüstü abidənin indiyədək düzəldilməməsidir. Bilirəm müharibə gedir, çətindir. Amma...".

Beləcə, Sarvan adlı dünyanın daha iki şəhidi haqqında nağıl başa çatır. Bu kəndin məzarıstanında altı şəhid uyuyur. Sarvan şəhidlərinin qış nağılı dillər əzbəri olaçaq, əfsanəyə çevriləcək. Bu nağıla Həsrəddinin iki oğul balası - Fədayi və Emil şirin-şirin qulaq asacaq, öz ataları ilə fəxr edəcək, ataları ilə birgə şəhid olan Zümrüdün adını əbədi yaşatmaq üçün düşmənə göz dağı olacaqlar.

Biri var idi, biri yox idi...  Sarvan adlı bir kənd var idi. Bu kəndə qışın sazaq günlərində doğma torpaqda əbədi uyumaq üçün şəhidlər gələrdi.

SALMAN Zəngəzurun başı qarlı dağlarından... RUFULLA Murovun bəyaz, ağappaq zirvəsindən...

ZÜMRÜD və HƏSRƏDDİN isə Ağdamın külək vıyıldayan

dağətəyi şaxtalı düzlərindən...

P.S. İndi Şəhid Zümrüdümüzün oğlu Yadigar qeyrətli bir vətənpərvərdir.

Şəhid Həsrəddinin nəvələri isə orta məktəb şagirdləridir, onlardan biri Şəhidimizin adını daşıyır.

Ağdamda şəhid olan Zümrüdün və Həsrəddinin ruhu şaddır. Ağdam işğaldan azad olundu. Qanınız yerdə qalmadı, Şəhidlər.

Sarvan kənd Mərkəzi Kitabxanası şəhid Həsərəddinin adını daşıyır.

## ZİRVƏLƏRDƏN BAXAN ŞƏHİD




Qışın sazaqlı günlərindən biri idi. Günəş zəif şüaları ilə qürub edirdi. Sarvan kənd mədəniyyət evinin müdiri Cahangir Qaraşovla köhnə ünvana qayıtmış məbədgahı gəzir, şəhid Salman Əliyevin guşəsində rəy və təkliflər kitabına qeydlər edirdik. O, evə yollandı, mən isə... Hər şey buradan başladı.

Altı ildir ki, torpaqlarımızda müharibə gedir. Tez-tez bu müharibə ilə rus-alman müharibəsini müqayisə edirik. O müharibədən xalqımıza «qara kağız» miras qaldısa, bu müharibədən isə bizlərə qara xəbər «yadigar» qaldı.

Qara xəbər, qara səs. İlahi, yəni səsin də rəngi olar?

Olar. Məhz Sarvanın yeddinci şəhidi Nail Cahangir oğlu Qaraşovun şəhid olmasını Əvəz qardaşımdan bax, beləcə qara səslə eşitdim. Əslinə qalsa, o demədi, anlatdı, telefondan asılı

qalan üz-gözü ilə, çöhrəsindən dəhşət yağan siması ilə.

Yenə də şəhid. Yenə də Sarvana şəhid dağı çəkən qara xəbər. Bu qara xəbərin sorağı ilə Məşədi Zəfərlə Salyan məscidinə yollandıq. Rayon dəfn komissiyasının üzvləri ilə görüşüb məsləhətləşdik ki, bu qara xəbəri kəndə səhər tezdən çatdıraq.

Hacı Oktayla bir söhbəti unutmayacağam. Yanıb-yaxıldığımdan bir az da şikayətləndim ki, elə bil düşmən bizim sarvanlıları tapıb güllədən keçirir. Bu kiçik kəndin yeddi şəhidi, bir itkin balası var. Hal-hazırda isə onlarla həmkəndlim azğın düşmənlə döyüşür.




- Deməli, sarvanlılar kişi kimi, qəhrəman kimi döyüşürlər. Əmək cəbhəsində necə hünərlə işləyirlərsə, döyüşdə də elə rəşadət göstərirlər, – deyə Hacı Oktay dilləndi.

Nail Cahangir oğlu Qaraşov 1973-cü ilin baharında - martın 31-də Sarvan kəndində dünyaya göz açmışdı. Evin üçüncü övladı idi. Sadə həyat yolu keçmişdi. Əməyi çox sevirdi. Zarafatcıl, sadə, şux qaməti ilə diqqəti cəlb edirdi. Qardaşları Namiqin, Natiqin, Rüfətin əvəzinə də işləyirdi. Bir sözlə, işdən qorxmurdu. Anası Naziləni yandırıb-yaxan bir də odur ki, o, sevimli oğlunu, yaxın köməkçisini itirmişdi.

“Nail əsl qəhrəman idi. Dəfələrlə düşmənlə üz-üzə gəlmişdi. Düşməndən qorxmurdu. Hətta ötən il Laçın bölgəsində mühasirəyə də düşmüşdü. Amma heç vaxt ruhdan düşməmiş, qələbəyə inanmışdı”. Bu sözləri Naillə birgə əmisi oğlu Həsənin toyuna gələn, əslən Salyanın Qarabağlı kəndindən olan İbrahim Yusubov söyləyirdi. O dedi ki, siz Naili yaxşı tanımırsınız. O, Laçın dağlarının qorxmaz qartalıdır, heç vaxt ölümdən də qorxmayıb. Bəli, Nail sözün həqiqi mənasında kişi kimi düşmənlə əlbəyaxa döyüşdə şəhid olmuşdur.

Atası Cahangirin dediklərindən:

– Kəndimizin şəhidlərini öz balamdan ayırmamışam. Onların adlarını əbədiləşdirəndə də, ailələrinə qayğı göstərəndə də, döyüş bölgələrinə gedəndə də, hiss etmişəm ki, mən özüm də onlarla bu ağır yükü çəkirəm. Nə bilim, bəlkə şəhidlərə məhəbbətimdəndir ki, Allah-təala mənim də sinəmə şəhid dağı çəkdi. Nail haqqında danışmaq mənim üçün çətindir. Nədənsə, mən onun ölümünə inanmıram. Elə bilirəm ki, şəhid olduğu Kəlbəcər dağlarından - Murovdan, Dəlidağdan qürurla, vüqarla bizə baxır. Bəlkə bu inamdır mənə təskinlik verən. Nail hərbi hissənin tərkibində Kəlbəcərin tunelinə girəcəkdə qəhrəmancasına şəhid olub. İki ay öncə döyüş bölgsində onunla görüşmüşdüm. Elə hey deyirdi ki, darıxma, biz qalib gələcəyik.

... Candan artıq sevdiyin torpağına uça zirvələrdn baxan kəndin yeddinci şəhidi. Qayıt, gəl doğma el-obana, ev- eşiyinə. Bəsdir bu qədər zirvələrdən baxdın.

Yox, Nail şəhidlik zirvəsindən həmişə vüqarla bizə baxacaq, qələbə gününü ilk dəfə o, bizə xəbər verəcəkdir.

P.S. Nail Murov dağlarında şəhid olmuşdu. Artıq Kəlbəcər

düşməndən azad olub. Qanın alındı, Şəhidimiz. Hal-hazırda şəhidimizin adını daşıyan Nail orta məktəb şagirdidir. Şəhidimizin atası Respublikamızın Əməkdar artisti Cahangir Qaraş ömrünün müdrik anlarını yaşayır.

Təəssüflər olsun ki, Nail Qaraşovun adına Salyan şəhərində yerləşən 2 saylı baxça ləğv olundu. Fürsətdən istifadə edib xahiş edirəm ki, Salyan şəhərində küçələrdən birinə şəhidimiz Nail Qaraşovun adı verilsin.

## SON MƏZAR, ATA YURDU




Sarvan kəndinin dörd şəhidinin uyuduğu məzarıstandayıq. Mənimlə birgə döyüşçü şəhid balamız Rufulla Əlisəfa oğlu Səfərovun qardaşı – ata əvəzi Adəmdir. Hələ qəbirüstü mazarı düzəlməyən qan qardaşı, şəhid itkin Rufulla haqqında yanıqlı-yanıqlı danışa-danışa İsfəndiyarı, Elnuru, Salmanı ziyarət edirik.

Kəlbəcərin Murov dağında şəhid olmuş Rufulla Səfərov 1973-cü il dekabrın 27-də Sumqayıt şəhərində fəhlə ailəsində dünyaya gəlib. Ata-anası sarvanlı olsa da, iş dalınca Sumqayıt şəhərinə üz tutublar. İşləyiblər, özlərinə ev-eşik qurublar. Övladları Adomə, Seyrana, İslama, Məlahətə ali təhsil veriblər. Rufulla da ali təhsil alacaqdı. O, Sumqayıtdakı 3 nömrəli orta məktəbi bitirdikdən sonra bir müddət Qafqaz enerjiquraşdırma idarəsində çilingər işlədi. Kollektivin hörmətini qazandı. Artıq atası Əlisəfa həyatdan köçmüşdü. O, canından artıq sevdiyi doğma Sarvan torpağında əbədiyyətə qovuşmuşdu.




Atası Əlisəfa Səfərov şərəfli əmək yolu keçmişdi. Sumqayıt şəhər kimya istehsalat birliyində operator işləmiş, ad-san qazanmışdı. Dövlət mükafatı laureatı adına layiq görülmüş, bir çox orden və medallarla təltif olunmuşdu, hətta Sosialist Əməyi Qəhrəmanı adını almaq ərəfəsindəydi ki, qəfil ölüm hər şeyi alt-üst etdi. Təəssüf ki, belə əmək qəhrəmanı unuduldu, yaddan çıxdı, adı əbədiləşmədi. Təkcə böyüyüb boya-başa çatdığı Sarvan kəndində böyük bir küçəyə onun adı verildi. Sağ olsun xeyirxahlar. Bax, Rufulla belə halal əmək sahibi Əlisəfa ocağında tərbiyə almışdı. Başı müsibətlər çəkmiş Əminə ana dedi ki, rəhmətlik Əlisəfa sonbeşik balası Rufullanı çox istəyirdi, çünki ona öz atasının adını qoymuşdu. Elə onu çox istədiyindəndir ki, tez yanına da apardı, heç onu şəhərdə də saxlaya bilmirdim, kəndə gedirəm deyərdi. Elə kəndə də gəldi, şəhid kimi, qəhrəman bir xalqın oğlu kimi.

Rufulla 1992-ci ilin may ayında hərbi xidmətə yollanıb. Neftçalanın Bankə qəsəbəsində 20 gün təlim-məşq keçəndən sonra Ağdam cəbhəsində Çəmənli, Abdal-Gülablı, Qarakənd və Muğanlı kəndlərində gedən döyüşlərdə olub. Yoldaşları arasında ad-san qazanıb.

Oktyabrın 9-da Sarvan kəndinin camaatı qəm-kədər içində idi. Həmin gün doğma torpağa onun ikinci şəhid oğlu Elnur Səmədov tapşırılırdı. Bir ildən sonra isə Elnurla qonşu qəbirdə Rufulla şəhid kimi əbədiyyətə qovuşacaqdır.

Noyabr ayının 21-dən Kəlbəcərin cənubundakı kəndlərdə, Laçının şimal ərazisində 701-ci briqadanın dördüncü batalyonunun 3-cü rotasında - Vaqazin, Təzəkənd, Bilulduz kəndlərində döyüşüb. Yanvarın ortalarında yaralanıb, qospitalda müalicə olunduqdan sonra yenidən döyüşə gedib. Artıq Tərtər, Kəlbəçər yolu bağlı idi. Murov yolu da qışda keçilməz olduğundan güman yalnız vertolyota qalırdı. İki ay bütün çətinliklərə dözən döyüşçülər ölüm-dirim mübarizəsi aparıblar. Ermənilər Kəlbəcərin mərkəzinə hücum edəndə Rufullagilin rotası tunelin girəcəyində düşməni iki gün atəşə tutublar, sanki yubadıblar ki, şəhər boşalsın. Kəlbəcər tamamilə düşmən əlinə keçəndən sonra 701-ci briqadanın tərkibində Rufulla Murov dağlarına mövqe döyüşlərinə yollanıb. Artıq aprel ayının 4-ü idi. Ermənilər Murovun əlçatmaz, çətin keçilən Güzgü deyilən ərazisində idilər. Həmin döyüşdə rota komandiri kəlbəcərli Mahir Quliyev də şəhid olub. Gədəbəy rayonunun Pirbulaq kəndindən Rufulla ilə bir yerdə döyüşdə ciddi yara alan Etibarın dediklərindən:

– Biz “Kamaz” maşını ilə düşmənə yaxınlaşdıq, heç maşından düşməyə imkan tapmadıq. Atışma başlandı.

Qeyri-bərabər döyüşdə 18 nəfər əsgərimiz şəhid oldu. Rufulla da həmin gecə şəhid oldu. Aprelin 18-dək həmin ərazi düşmən əlində idi. Aprelin 20-də bizimkilər həmin ərazini

düşməndən aldı. 30-40 meyidi Gəncəyə gətirdilər. Meyidlərin çoxunun yiyəsi tapılmadı. 18 meyidi isə Gəncənin İmamzadə məscidinin həyətində el adəti ilə dəfn etdilər.

Adəmin dediklərindən:

Gəncədə həmin qəbirlərdə uyuyan şəhidlərin şəkillərinə baxdım. Rufulla orada yox idi. Deməli ya əsir düşüb, ya da qar altında qalıb. Axtarış başlandı. Gecə-gündüzümüz yox idi. Şahidlər söylədilər ki, Rufulla elə o 18 nəfər dəfn olunmuş şəhidlərin arasındadır. Axı, dəfn olunanlardan iki şəhidin şəkli yox idi. Yenə axtarmaq lazımdır. Gəncəli Asim Əsədzadə, Saleh müəllim, 4 nömrəli qəbiristanlığın müdiri Polad Şükürovun səyi ilə məlum oldu ki, şəkli olmayan şəhidlərdən biri elə Rufulladır. İyun ayının 5-də Gəncə hadisələrindən sonra daha da axtarışı gücləndirdik. Məlum oldu ki, şəkil səhlənkarlıq ucbatından 18 nəfər şəhidin şəkli arasına düşməyib.

Həmin şəklə mən də baxdım. Nədənsə 20 yanvar şəhidləri gözlərim önündə canlandı. Üç yerdən güllə yarası almış Rufullaya baxmaq dəhşət idi. Adəm şəkli yalnız özündə saxlayır.

Sentyabr ayının 14-də Rufullanı müvəqqəti uyuduğu torpaqdan doğma Sarvan torpağına, atasının əbədiyyətə qovuşduğu torpağa tapşırdılar. Son məzar ata-ana ocağı Sarvan oldu. Gözlər yoldan çəkildi, bir niskil də aradan götürüldü. Bu da müharibənin acı dəhşətlərindən biri...

Bəli, altı ay ana öz ciyərparasını axtardı, altı "ay oğul" deyib nalə çəkdi, altı aydan sonra onu doğma Sarvan torpağına tapşırdı. Məşəqqətlər çəkmiş Əminə ana sanki sakitləşdi, təsəlli tapdı. "İlahi, buna da şukür" – dedi.

## ZƏNGƏZURDA ŞƏHİD OLDU




O gecə soyuq külək, şaxtalı hava insanın iliyinə işləyirdi. O gecə 1993-cü ilin dördüncü günü Sarvan torpağına onun üçüncü qəhrəman şəhid oğlunu Salman İsməmməd oğlu Əliyev əbədi olaraq haqq dünyasından cənnət dünyasına yola salındı. “Salman İsfəndiyarın, Elnurun uyuduğu məzarıstanda üçlük yaratdı”. Bu cümləni çöhrəsinə, yanaqlarına göz yaşları axa-axa hıçqırtı ilə inləyən gözəl şairimiz, bütün dərdlərimizə şərik, tanrısal yazarımız, dünyaya sığmazlıq bəxş edən Məhəmməd Rza Xəlilbəyli söylədi.

Sonra mən belə qəmli anları «Yasin» surəsini həmişə xüsusi şirin avazla oxuyan kənd ağsaqqalı, Səftər kişinin çöhrəsində, şəhidin dördündə məzarıstanda görəcəyəm. İlahi, «Yasin»i qəhərdən, göz yaşlarından oxuya bilməyən Səftər kişi yəqin yadına saldı ki, toyunu görməyən ata-ana axı, Salmanı bəy kimi görmək istəyirdi. Qara xəbəri kəndə 27-də gəldi, özü isə qara xəbərindən 9 gün sonra. Qohum-tanışlar hansı hisslər keçirtdilər. (Atan-anan, bacın-qardaşın ağır günləri yatdımı?).

Bütün bunlara ürək necə dözsün, Salman? Salman dostu Rafət Nağıyevlə bir il öncə könüllü olaraq müharibəyə - döyüş yerinə yollanmışdı. O vaxt onlara silah verməmişdilər. «Çatışmır» demişdilər. Sonra hərbi komissarlıq məktub göndərmişdi ki, Fizuli-Zəngilan bölgəsinə döyüşçülər gərəkdir. O, tərəddüd etmədən, heç bir bəhanə gətirmədən

düşmənlə döyüşməyə - vuruşmağa getdi. Onunla birgə, qonşu Qaraqaşlı kəndindən Vüqar Zaidov və Adil Əliyev adlı kəndçilər də olmuşlar. Onlar 25 gün bir cəbhədə döyüşüblər. Bir-birlərinə isinişib, həqiqi mənada dostlaşmışdılar.




Salmanın dəfn olunduğu gündən ta ki, onun yeddisinə kimi o qəmli günlərdə qohum-tanışlarla bir yerdə olan Vüqarla, Adillə görüşdüm. Şəhid Salmanın şahidi Adil Əliyev və Vüqar Zaidov maraqlı faktlar söyləyirdilər.

Vüqar Zaidov Salmanla bağlı belə dedi:

– Dekabrın 10-da 400 nəfər döyüşçü Bakıdan Qubadlı rayonuna yola düşdü. 12 gündən sonra döyüş mövqeyimizi dəyişdilər. Zəngilanın Vətənli kəndində yerləşdik. Mən, Adil, Salman və Coşğun bir otaqda qalırdıq. Bir-birimizə çox isinişmişdik. Belə qərara gəldik ki, döyüşə də bir yerdə gedək. Dekabrın 26-da sərhəddəki erməni kən-dinə hücuma keçdik. Biz 8 kilometr dağlara qalxdıq, qalın meşələrdən keçdik. Döyüş səhər saat 6-da başlamalı idi. Səhər saat 4 radələrində mən Salmanla yanaşı gedirdim. Onun bu sözlərini eşitdim: «Qisas almağa kedirik». Sonra o danışmadı. Ermənilər kəndin girəcəyində post qoymuşdular. Burada qısa atışma oldu. Hava işıqlananda biz kəndə girdik. Döyüş planına görə, hücumda üç rota iştirak etməli idi. Lakin

kəndə təkcə» bizim rota daxil olmuşdu. İkinci və üçüncü rota kiminsə əmrilə geri çəkilmişdi. Kənddə bizi üç tərəfdən güclü top atəşinə tutdular. Geri çəkilməyə məcbur olduq, texnika yox idi, patron az qalırdı. 17 nəfərlik vzvodla iki gün mühasirədə qaldıqdan sonra çox çətinliklə Quyudərə- Xəşdab kəndinə gəldik (hələ kimlərin şəhid olduğu bizə məlum deyildi). Ertəsi gün Vətənli kəndinə gələndə bildik ki, Salmanla Coşğun bu döyüşdə həlak olublar».

Adilin dediklərindən:

Döyüş dostlarından hər kəs başını götürüb qaçanda bizim döyüşçülərdən biri Salmanı o vəziyyətdə görmüşdü. Yazıq ata İsməmməd inanmırdı. Daha doğrusu, inandırdılar ki, Salmana heç nə olmayıb, hətta 26-sı günü Zəngilanda qospitalda döyüşçü dostlarına, yaralılara baş çəkməyə gəlib. O da, atan İsməmməd də: "Nə bilim, təki Siz deyən olsun" deyib. Amma anan: "Onun başında nəsə var" – deyirdi. Bəli, həmin günlər Salmanı əldə etmək üçün Azərbaycan tərəfi çox çalışdı. Nəhayət, 1993-cü ilin ilk günlərində Salman şəhid kimi doğma kəndinə qayıtdı. Dəhşət sonra başlandı. Qohum-əqrəba çənazəyə baxıb demişdi: "Yox, bu, Salman deyil". Sonra əlindəki "Ana" kəlməsi onu tanımaqda, yəqinləşdirməkdə köməkçi olmuşdu. Salman ayağından ciddi yara almışdı. Elə qar üstündə də yaralı halda huşsuz uzanıbmış.

Nədənsə, mən Salmanı təsəvvürümdə belə canlandırıram: Bəyaz qar, ağappaq qarın üstündə pələng cüssəli, ağappaq Salman. Düşmənlər əlində, qərib diyarda, qar üstündə qalan Azərbaycan əsgəri.

Yazımın adını "Zəngəzurda şəhid oldu" qoymağım

deyəsən, indi açıqlanır. Bəli, Salman Azərbaycanın tarixən doğma torpağı olan Zəngəzur dağlarında, Zəngəzur torpağında şəhid oldu. Vaxt gələcək, doğma torpaqlarımız özümüzə qayıdacaq, onda biz Salmanın şəhid düşdüyü kənddə xatirə lövhəsi asacağıq. O günləri görəcəyik. İNŞALLAH!

P.S. Şəhid Salman Əliyevin adı da əbədiləşmişdir. Sarvan Mədəniyyət Evi Şəhidimizin adını daşıyır. Qubadlı və Zəngilan düşməndən azad olub. Ruhun şad olsun, Salman, qanın alındı.

## ATA DA ŞƏHİDDİ, OĞUL DA




Sarvan qəbiristanlığında hələ bığ yeri tərləməmiş, ömrünün 19-cu baharında şəhid kimi əbədiyyətə qovuşan Elnur Sakit oğlunun məzar daşına diqqətlə baxıram. “Azərbaycanın Füzuli bölgəsinin Qacar kəndində qəhrəmancasına həlak olmuşdur” cümləsini oxuyuram və fikirləşirəm ki, insan üçün Vətən məhfumu onun doğulub boya-başa çatdığı evdən başlayırsa, bəs onda Elnuru Füzuliyə çəkib aparan hansı hisslər idi? Vətən məhəbbəti, Vətən sevgisi. Elnur şeiri çox xoşlayırdı, xüsusən də Məmməd Arazı. Yeganə qardaşı, ata əvəzi Aslanın toyunda hey xahiş edirdi ki, Məmməd Arazdan de, müəllim. Şübhəsiz, söyləyirdim. Aşağıdakı misralar ona daha çox xoş gəlirdi:

*Vətən daşı olmayandan*
*Olmaz ölkə vətəndaşı...*
*Vətən mənə oğul desə, nə dərdim,*
*Mamır olub qayasında bitərdim...*




Bəli Elnur, Vətən, doğma el-oban, kəndin indi sənə oğul deyir. Sən də şəhid olub torpağına sərildin. Sən şəhidliyinlə sübut etdin ki, Vətəni dildə sevmək azdır, onun yolunda canından da keçmək lazımdır. Sən bunu bütün dostlarına, döyüşdən, müharibədən qaçanlara sübut etdin, Elnur.

Elnurun çox da zəngin olmayan, adi tərcümeyi-halı var. 1973-cü ildə sentyabrın 1-də Sarvanda anadan olub.

Orta məktəbi bitirib. Radio, televizor təmiri ustası ixtisasına yiyələnib, hərbi xidmətə çağırılıb. Qarabağa döyüş xəttinə gedib. Dəfələrlə döyüşdə iştirak edib. Qacar kəndinin müdafiəsində qəhrəmancasına həlak olub. Onun ağır hüznlü günlərində döyüş dostları yana-yana danışırdılar ki, Elnur ölümün gözünə dik baxdı.  Sağ olsun, onu böyüdüb boya-başa çatdıran ata-anası.

Döyüşçü dostları ata-anadan söhbət açmaq istəyirdilər ki, indi ailəyə başçılıq və atalıq edən Aslan göz yaşlarını  gizlədə bilmədi. Axı, 1991-ci ilin Qara Yanvarında, şəhidlərimizin ilk günü ağır müsibətlərə ürəyi tab etmədi Sakitin. Qohum-tanışlar, dostlar Sakiti şəhid kimi tanıyırlar. Sakit çox bacarıqlı təsərrüfatçı idi. İndi rayonumuzun neçə-neçə əmək adamı onu əsl insan kimi yaxşı xatırlayır.  Onun məzar daşın-

da həyata tükənməz eşqi olan Sakitin xoş çöhrəsinin bir anı həkk olunub. Elnur həmişə deyərdi ki, atam xalqımızın başına gətirilən müsibətlərə dözə bilmədi, həyatını xalq yolunda, Vətən yolunda qurban verdi. Xudu Məmmədov kimi, Fərman Kərimzadə kimi, Hamlet Xanızadə kimi dözə bilmədi atam.

Sən taleyin işinə bax, atanın bir il öncə əbədi uyuduğu torpağa oğul əsl şəhid kimi tapşırıldı. İndi iki məzar, iki şəhid – ata-oğul əbədi olaraq şəhidlik zirvəsinə ucalmışlar.

Torpaq, əgər uğrunda ölən varsa, Vətəndir. Bəli, çox sərrast deyilmişdir. Elnur Sakit oğlu Səmədov öz al qanı ilə Vətən uğrunda ölümə hazır olduğunu bildirdi.

PS: hal-hazırda Sarvan Kənd Xəstəxanası Elnurun adını daşıyır.

Ruhun şad olsun, Elnur! Füzuli işğaldan azad olundu.

## ŞUŞANIN DAĞLARI BAŞI DUMANLI




Yəqin "Şuşanın dağları başı dumanlı" sərlövhəsini oxuyan qohumlar, tanışlar, tələbəlik illərinin dostları üroklərindən bir gizli ah da keçirtdilər. Axı, xalq mahnısı "Şuşanın dağlan" İSFƏNDİYARIN ən sevimli mahnısı idi. İndi də toylarda, yığıncaqlarda Sarvan kəndinin ilk ŞƏHİDİ İSFƏNDİYARI yad etmək üçün "Şuşanın dağları" xalq mahnısı ilə qohum-tanışlar, sanki mahnının bitib-tükənməz ömrü qədər onunla birgə yaşayırlar.

O, Sarvan kənd orta məktəbinin səkkizinci sinfini fərqlənmə ilə, Bakı şəhərində fizika-riyaziyyat təmayüllü məktəbi

də tərifnamə ilə uğurla bitirdi. Ali təhsil aldı. Ehtiyatda olan Baş leytenant hərbi rütbəsi aldı.

Xalq hərəkatı başlayanda onun öncüllərindən oldu. Kənd dayaq dəstəsinin tərkibində bütün tədbirlərdə iştirak etdi.

O, həftənin bazar günləri xalq cəbhəsi dayaq dəstəsinin iclasına, Salyan aqrar-sənaye tikinti trestinin yaşayış sahəsindən gəlirdi. Yağışda-qarda İsfəndiyar yorulmaq bilmədən fəaliyyət göstərirdi, həmişə ciddi mübahisələrdə iştirak edərdi. Cəbhədaşları onun mülahizələrinin doğruluğunu sonralar anlayırdı.

Yadıma düşür ki, "Sarvan" xeyriyyə cəmiyyəti yaradılanda və onun ilk təşəbbüskarlarından biri kimi cəmiyyətin amalını Qarabağda döyüşənlərə həsr etməyi tövsiyə edərdi.

O, inadkarlıqla deyərdi ki, biz döyüş zonalarına gedək, yardımı orada döyüşçülərə verək. Fikirlər haçalanırdı. Kimsə əlsiz-ayaqsızlara yardım etməyi, kimsə vuruşan sarvanlılara yardım etməyin zəruriliyini söyləyirdi. O isə əsəbi, çılğın görkəmi ilə deyirdi:

– Xeyriyyə cəmiyyəti yalnız cəbhənin təklifi ilə yaradılıbsa, cəbhəyə də xidmət etməlidir.

Allah sənə rəhmət eləsin, İsfəndiyar! Yığıncaqların birində məsələ qaldırdı ki, niyə bizim dayaq dəstəsindən döyüş zonalarında yoxdur? Axı, xalq soruşa bilər: burada nəyə lazımsınız? Bizlərdən kimsə şəhid olmalıdır. Getmir qulaqlarımdan bu səs, getmir, vallah. O istəklə də döyüşə getdi və kəndə şəhid adı ilə qayıtdı. Sonra kəndin daha iki yetirməsi -Elnur Sakit oğlu və Salman İsməmməd oğlu şəhid oldular. Tale insanı dünyaya bəxş edəndə ad qoyur, sənə atan Möhübbət, anan

Şahnisə İsfəndiyar adı qoydular. Şagird İsfəndiyar, tələbə İsfəndiyar, baş eytenant İsfəndiyar, mühəndis İsfəndiyar, ata İsfəndiyar yaşadı və qəhrəmancasına həlak oldu.




4 avqust. O gün qan qardaşıyla döyüşdən yenicə çıxmışdı. Öz mövqelərinə – Xatınbulağına qayıtmışdı İsfəndiyar. Dincəlmək istəyirdi. Elə bil qarı yağılar da addımbaaddım izləyirmiş onu. Qəfil gurultu qopdu. Kənd uzaqvuran toplardan, qrad qurğularından atəşə tutuldu. Mərmi yağışından göz açmaq olmurdu. İsfəndiyar döyüşçü yoldaşlarıyla özlərini itirmədilər. Düşmənə cavab atəşi açdılar. Mərmi yağışı isə səngimək bilmirdi. Döyüşçü yoldaşlarından kimsə yaralandı. Yarası ağır idi. İsfəndiyar kömək etmək üçün ona yaxınlaşdı. Əlini uzatmaq istədiyi anda yaxınlıqda mərmi partladı. Başından küt ağrılar qopdu, heç bir söz deməyə macal tapmadı. Dünyasını dəyişdi, şəhid oldu müqəddəs torpaq yolunda.

Sözləri çözələyə-çözələyə unutdum ki, bu yazıya axı, Şuşanın başı dumanlı dağları ilə başladım, görəsən niyə? Ona görə ki, ocaq ayının 23-də İsfəndiyarın ad günüdür. Qohum-tanışlar bir yerə yığılıb İsfəndiyarsız ad gününü keçirəcəklər. Yox, mən yanılıram. Axı, İsfəndiyar orada olacaq. Şəhid İsfəndiyar torpağa tapşırılandan sonra Allah-təala

hökmü ilə bir igid atasının adını və həyatındakı arzularını yaşatmaq üçün dünyaya gəldi. Nəydi atanın arzusu? «Şuşanm dağları» mahnısını dinləmək və o dağları düşmənsiz görmək. İndi bu ulu dağlar, bulaqlar düşmən tapdağı altındadır. Dumanlara qan hopub elə bil. Lakin tezliklə Qarabağımızda ağ günlər başlayacaq. Şuşa da, Laçın da - bütün torpaqlarımız geri alınaçaq. İsfəndiyar İsfəndiyar oğlu, atasının adını daşıyan Sarvan kənd orta məktəbinin əlaçı şagirdi olacaq, Azərbaycan bütöv Türk dünyasının qüdrətli dövlətinə çevriləcək. Onda İsfəndiyar səfalı Şuşa şəhərində gəzəcək, dağlara baxıb deyəcək: «A dağlar, bir vaxtlar atam bu torpaq üçün şəhid oldu». Şuşanın dağlarından duman çəkiləcək. Günəş şəfəq salacaq. Azadlıq günəşi!

İsfəndiyar Həsənov Sarvan kəndinin yetirməsi idi. Orada doğulmuşdu. O kəndin ab-havası ilə, suyu ilə, çörəyi ilə böyümüşdü. İlk təhsilini də Sarvan kəndində almışdı. Səkkizinci sinfədək oxumuşdu. Sonra Bakıdakı fizika-riyaziyyat təmayüllü 1 nömrəli internat məktəbini də əla qiymətlərlə bitirmişdi. Həmin ildə də Azərbaycan Politexnik İnstitutunun maşınqayırma texnologiyası fakültəsinə daxil olmuşdu. 1989-çu ildə tələbəlik illəri ilə vida laşarkən Zəminə ilə ailə qurmuşdu. Təyinatla Çelyabinskə işləməyə göndərilmişdi.

O, əli qabarlı Möhübbət kişinin oğlu idi. Atasının adına da layiq övlad olmalıydı. Oldu da. Fevralın əvvəlində qayıtdı doğma torpağına İsfəndiyar. Özünə iş arayıb- axtardı. Salyan 3 nömrəli mexanikləşdirilmiş tikinti idarəsində iş tapdı özünə. Sıravi mühəndisliklə də kifayətləndi.

Hə.., ad günündən danışırdıq. Yanvarın 23-də İsfəndiyarın

28 yaşı tamam olur. Qohum-qardaşlar birikdə əyləşib Sarvanın ilk şəhidi İsfəndiyar Möhübbət oğlu Həsənovu yad etmək üçün «Şuşanın dağları» xalq mahnısını səsləndirəcəklər. O mahnının melodiyaları ilə bu çətin dünyamızı dərk etməyən Rəşid də, İsfəndiyar da öz dünyasında olacaqlar. Sabahkı dünyanın şirinliyini isə ermənisiz Azərbaycanda hiss edəcəklər.

Ruhun şad olsun, kəndimizin ilk şəhidi. Şuşa şəhəri indi işğaldan azad olub. Sarvan kənd orta məktəbi Şəhidimizin adını daşıyır. Hər il 23 yanvarda şəhidimizin xatirə, anım günlləri keçirilir.

İndi iki oğlu da evlidir. Adını daşıyan İsfəndiyarın iki övladı var.

İnşallah, Rəşiddən də övlad payı görək.

## TORPAĞI SAHİBSİZ QALAN ŞƏHİD



Xalqın düçar olduğu amansız müharibənin vurduğu yaralar zaman-zaman sağalacaq, törətdiyi faciələr illər boyu unudulmayacaq, acı xatirələr kimi əbədi yaşayacaqdır. Müharibənin elə dəhşətləri olur ki, ev-eşiyə elə fəlakətlər gətirir ki, insan müdhiş ağrıları canına-qanına, beyninə əbədi həkk edir. Artıq qəhrəmanlar diyarı, mərdlər kəndi kimi tanınan Sarvanın səkkizinci şəhidi Zahir Müseyib oğlu İsmayılovun dəfn gününü, doğma torpağa tapşırıldığı günü heç vaxt unutmayacağıq. Axı, o gün göylər ana fəryadından titrəmədi. O, gün atanın icin-icin sızıltılarını heç kim hiss etmədi, yanaqlara süzülən göz yaşlarını heç kim

görmədi. O gün ata əvəzi Qadir böyük qardaşı kimi alışdı, yandı. O gün bacıları ana sorağı ilə şəhid qardaşlarını oxşadılar yana-yana. O gün Səyyarə, Səbriyyə, Fazilə, Könül ahu -fəğan edə-edə dağ cüssəli Zahirə ağı dedilər. Zahir ata-anasını uşaq ikən itirmişdi. Sarvan öz yetim şəhidini dəfn edirdi. O gün kəndin bir qism, bir ovuç ev sahəsi də yetim qaldı. Axı, Zahir həyətyanı sahə almışdı. Hələ o torpağa dən düşəcəkdi. O torpaq əkilib beçəriləcəkdi. Amma torpağın sahibi Zahir o gün yetim kimi dəfn olundu. Sarvanda yadigar torpağı qaldı. Zahirin dəfn olunduğu torpaq sahəsi onun adını daşıyacaq. Ançaq başqa bir yerdə-kəndın görkəmli yerində bir Zahir yeri əbədi yaşayacaqdır.

Zahir öz torpaq sahəsinin kənarlarını çəpərlədi, arx çəkdi, sahmana saldı. Hərbi komissarlığın səfərbərliklə əlaqədar çağırışından boyun qaçırmadı. Azğın, nankor erməni faşistlərinə qan uddurmaq üçün döyüşə yollandı. Zahir cəbhəyə yurdumuza bahar girər-girməz, 19 martda yollandı. Aprelin 27-də isə kəndə şəhid kimi-qəhrəman övlad kimi qayıtdı. Qayıtdı ki, həmkəndliləri İsfəndiyarı, Elnuru, Salmanı, Rufullanı, Həsrəddini, Zümrüdü, Naili tək qoymasın. Onlarla birgə kəndə, el-obaya şan-şöhrət gətirsin. İlahi, Zahir özü şəhid oldu. Amma bir ovuc torpaq sahəsi yetim qaldı. Sanki o torpaq da Zahirin ömrünü yaşayır. Torpaq da yetim olarmış. Bəli, Zahir dəfn olunan gün qardaş-bacılar o biri qardaşı da haraylayırdılar. Faiqdən ötrü narahat idilər. Axı, Faiq də Zahirdən xəbərsiz Fizuli bölgəsində yuxarı Əbdürrəhmanlı kəndində döyüşürdü. Qardaşının dəfn olunduğu gündən iki gün sonra Faiq kəndə qayıtdı. Onun dediklərindən:




- Zahirin harada döyüşdüyünü bilmirdim. Sən demə aramızda heç 10 km məsafə yox imiş. Hər ikimiz bir-birimizdən xəbərsiz döyüşürdük. Zahir yaxşı pulemyotçu idi. Pribaltikada əsgəri xidməti zamanı yaxşı təlim keçmişdi. Zahirsiz mənim üçün çox çətindnr. Axı, biz həm qardaş, həm də dost idik. Mən əsil dostumu itirmişəm.

O ağır, hüznlü günlərdə Zahirin döyüş dostu Novruz Kərimovun söhbətini heç vaxt unutmayacağam. Novruz deyirdi ki, biz 8 nəfər salyanlı idik. Bir dəfə erməni mövqeyini ələ keçirtdik. Qənimət kimi sursat, yemək-içmək də ələ keçirmişdik. Zahir bizim üçün elə süfrə açdı ki, gəl görəsən. Biz sonra bildik ki, Zahir 75 saylı yeməkxanada işləyirmiş. Biz ləzzətli yemək üçün Zahirə «Sağ ol» dedikdə, təşəkkür edəndə, qürurla, inamla dedi ki, hələ bu harasıdır, Füzuli şəhərini ələ keçirəndə Sizə kabab verəcəyəm. Təəssüf, bu ona qismət olmadı.

Zahir Müseyib oğlu İsmayılov 1971-ci ildə may ayının birində sadə kolxozçu ailəsində dünyaya göz açmışdı. (Ad günü dəfn günündən beş gün sonra...).

Sadə ömür yolu seçmişdi. Orta təhsilini Sarvan kənd orta məktəbində başa vurmuşdu, hərbi xidmətdə olmuşdu. Bir

müddət kənd yeməkxanasında işləmişdi, hamı ilə xoş ünsiyyətdə olmuşdu. Gülərüzlü, ucaboy bir gənc idi. 1988-ci ildən Q. Səmədov adma kolxozda işləyirdi. 1992-ci ildə mühasib ixtisası üzrə bır illik təhsil kursunu da bitirmişdi. Səfərbərliklə əlaqədar hərbi komissarlıqdan çağırış vərəqi gələndə Zahir kolxozda suçu işləyirdi.

İndi Zahirin keçdiyi döyüş yolu hamıya örnəkdir. Qardaşları Qadir, Qalib və Faiq Zahirin sahibsiz qalan sahəsini yenidən dirçəltməli, əkib becərməlidirlər. Axı, Zahir öz müqəddəs torpaqlarımıza sahib durmaq üçün silaha sarılmışdı. Odur ki, böyük türk şairinin dediyi kimi:

*Sahibsiz qalan Vətənin batması haqdır,*
*Sən sahib olursan, bu Vətən batmayacaqdır.*

Bəli qardaşlar, qoymayın şəhid qardaşımız Zahirin torpaq sahəsi sahibsiz qalsın. Axı, torpaq yetim qalmamalıdır. O, torpaqda həyat eşqi yananda, gül-ciçək üzə güləndə bir dəstə gül ilə onun məzarı önündə dayanıb deyin:

– Rahat yat, qardaşım. Torpağına sahib olmuşuq. Xalqımız erməni faşistlərini doğma torpaqdan qovub, çıxarıb. İndi bütün qaçqın, köçkünlər öz torpağına sahib olur. Rahat yat. Torpağı sahibsiz qalan şəhid qardaşımız ZAHİR.

# MƏZARSIZ ŞƏHİD




ZÖHRAB hərbi xidmətə yola salınanda ona uğurlar dilədilər. Ev-eşiyinə salamat qayıtmağı arzuladılar. Anası Şəfiqə dedi:

– Oğul, sən ailəmizin istəklisisən. Bilirsən ki, sizi ərsəyə gətirmək üçün bütün mərhumiyyətlərə dözmüşəm. Sizi atasız böyütsəm də çalışmışam ki, ehtiyac içində yaşamayasınız. Başlıcası isə sizi əsl insan kimi tərbiyə etmişəm.

Bil ki, doğma torpağımızı göz bəbəyi kimi qorusan, onda məni də, bacılarını da bütöv xalqımızı qorumuş olarsan.

O, Zöhrabı bağrına basdı, üz-gözündən öpdü. Yanaqlarına süzülən göz yaşlarını Zöhrab görməsin deyə gülümsündü, xeyir-dua verib ciyərparasından ayrıldı.

Sən demə, bu əbədi ayrılıqmış. Sən demə, ana balasını şəhid kimi oxşayıb, yanıb-yaxılacaqmış. Sən demə, ana şəhid balasının məzarına tamarzı qalacaqmış. Sən demə, ana şəhid balasını həyat yoldaşı rəhmətlik Yavər ilə yanaşı dəfn etməyəcəkmiş. Sən demə, ana ürəyinə təsəllini «oğlunuz qəhrəmanlıqla şəhid oldu» cümləsi verəcəkmiş. İlahi, bu da təsəllidirmi? Bəli axı, iki ildən çoxdur ki, həmkəndlisi Ağası kişi oğlu Elçinin yolunu gözləyir. Axı, beş aydır ki, eloğlusu Hafıs övladı Elburusu soraqlayır. Bəli, ananın təsəllisi budurki, övladı Vətən uğrunda qəhrəmancasına şəhid olmuşdur.

Altı illik müharibədə məzarı olmayan, itkin düşən balalarımız çoxdur. Onların məzarları el-oba ürəyində olur.

Zöhrabın müqəddəs məzarı anası Şəfiqənin, qardaşları Hikmətin, Həsənağanın, Elxanın, Orxanın, bacıları Gülşənin, Zəhranın ürəklərində əbədi yaşayacaqdır. Başını dik tut

şəhid anası. Başını dik tut şəhid qardaşı, şəhid bacısı. Zöhrab müqəddəs torpaqlarımız uğrunda şəhid olaraq sizin ailəyə başucalığı gətirmişdir.

Zöhrabın itkin düşməsi haqqında xəbəri müəllim dostum, şəhidin bibisi oğlu Ağasahibdən eşitdim. Çox təəssüfləndik. O da, mən də Zöhraba dərs demişdik. Onun tərbiyəsi, bir az utancaqlığı, dərin savadı, zəhmətkeşliyi və istiqanlığı hamının istəklisi etmişdi. Ədəbiyyatı, şeiri çox sevirdi. Bu sahəyə maraq əmisi Ə. Kürçaylıdan keçmişdi. Ötən il arzu etdiyi fakültəyə test üsulu ilə daxil ola bilməyəndə ruhdan düşməmişdi. “Daha səylə çalışacağam, əsgərlikdən sonra mütləqi arzuma yetəcəyəm” - demişdi. O, arzusuna yetəcək idi də. Amma bu mənfur müharibə olmasaydı. Zöhrab özü ilə haqq dünyasına neçə-neçə cin olunmayan şer parçaları apardı.

Zöhrab Yavər oğlu Rəsulov 1975-ci il dekabr ayının 7- də Salyan rayonunun Sarvan kəndində dünyaya göz açmışdır. O, atası Yavəri erkən yaşında itirmişdir.

Hərbi xidmətə çağırılmış, döyüş yolu Tərtərdən başlamış və orada da başa çatmışdır. Düşmənin niyyəti Tərtər rayonunu da ələ keçirmək idi. Zöhrab və onun dostlarının şücaəti sayəsində Tərtər erməni faşistlərinə qismət olmadı. Qısa ömür yaşadı, amma mənalı.

Zöhrabın boya-başa çatdığı ailənin başçısı Şəfiqə haqqında bir-iki kəlmə söz demək yerinə düşər. Şəfiqə sözun böyük və geniş mənasında əsil anadır. Ömür-gün yoldaşını itirəndən sonra uşaqları zəhmətə bağlı, halal çörəklə böyütmək üçün gecə-gündüz əlləşdi. O, İ. Həsənov adına orta məktəbdə xadimə işləyir. Boş vaxtlarında mövsümi kolxoz işlərində işləyir ki, uşaqlar korluq çəkməsinlər.

Burda qəhər onu boğur, tutulur. Ancaq onu eşidirəm ki,, deyir ki, şükür olsun allaha gözüm yoldan çəkildi. İlahi, yəni buna da şükür etmək olar?! Sən bizim millətin iradəsinə, dözümünə, əzminə bir bax. Yadıma bu ilin qışında dayım, şəhid atası Abış kişinin oğlu Həsrəddini torpağa tapşıranda allaha şükürlər etməsi düşdü. Bu da bir təsəllidir. Acı təsəlli. Şəfiqə anaya, ata əvəzi Hikmətə bir daha təsəlli verib deyirəm: "İnsanlar yaşayıb ölürlər. Şəhidlər isə ölüb yaşayırlar. Zöhrab həmişəyaşar qəhrəmandır. Onun adı, əməli minlərlə insanların ürəklərində əbədi yaşayacaqdır".

## ELÇİN - YANAN ÜRƏK




Oxuculara kəndimizin bir qəhrəman övladı haqqında söhbət açmaq istəyirəm. Gəlin əvvəlcə onunla qısa tanış olaq.

Həsənov Elçin Ağası oğlu 1974-cü il sentyabr ayının 20-də Salyan rayonun Sarvan kəndində dünyaya göz açmışdır. 1980-cı ildə Sarvan kənd orta məktəbinin I sinfinə daxil olmuş və 1991-ci ildə orta məktəbi bitirmişdir. Salyan rayon Hərbi Komisarlığı hesabına sürücülük peşəsinə yiyələnmişdir, "Şəfəq" pambıqtəmizləmə məntəqəsində fəhlə işləmişdir. 1992-ci il oktyabr ayının 2-də Hərbi Komissarlığının çağırışı ilə əsgərliyə getmişdir. Naxçıvan Muxtar Respublikasında yerləşən "N"  saylı hərbi hissəsinin Sərhəd Qoşunlarında xidmət etmişdir. Dekabr ayında atası Ağası (Allah rəhmət eləsin) Elçinlə görüşmüş Sarvan kənd sakini Arifə Mənsim qızının toxuduğu yun əlcək

və corabları ona vermişdir. Qarabağda müharibənin qızğın vaxtları idi. Elçin təşəbbüslə çıxış edib, Hərbi hissə rəhbərliyindən xahiş edib ki, onu döyüşə göndərsinlər. Beləliklə, Elçin beş-altı könüllü ilə birlikdə Bakı şəhərinə, ordan da döyüş bölgəsinə göndərilir. İlk döyüşü Ağdərə bölgəsində Kasapet kəndində başlayır. Bir neçə dəfə ağır döyüşlərdə iştirak edir. Son döyüşü martın 4-də Ağdərə uğrunda döyüşlərdə olur. İki gün mühasirədə qalır, martın 6-da yaralı vəziyyətdə itkin düşür...

Doğma Sarvan kəndimizdə müharibəyə könüllü yollanan çoxlu sayda ərənlərimiz, igidlərimiz olub. Axı, necə də olmasın? Vətəni sevmək imandandır deyiblər. Vətən Anadır, Ananı seviriksə, Vətəni də sevməliyik. M.K.Atatürkün təbirincə desək, dünyada nəsil əvəz oluna bilər. Dünyanı tərk edənin yerinə yeni övlad doğula bilər. Fəqət, doğulmayan, ölməyən Vətəndir. Vətəni ölməyə, yox olmağa qoymamaq, bizim vəzifəmizdir.

Sarvan şəhidlərinin xatirəsi həmişə əziz tutulur. Ad günləri, xatirə gecələri keçirilir. Xatırlayıram ki, 2004-cü il sentyabr ayının 20-də Elçin Ağası oğlunun 30 yaşı qeyd olundu. Qohumlar, yaxınlar, dostlar, qonşular və müəllimlərin iştirak etdiyi xatirə gecəsində Elçinin parlaq xatirəsi yada salındı. Bax onda Elçinin anası Gülbacı, qaradaşı Muğbil, bacilan Sevinc, Lətafət, Tünzalə qürur hissi keçirir, belə bir şəxsin anası, qardaşı, bacısı olmağın sevincini yaşayırdılar.

Anım mərasimində qohumu Nuralı Ağahüseyin oğlunun dedikləri maraq doğurdu. O, dedi ki, Elçin döyüşə getməkdən qorxmurdu. Başqaları kimi oda müxtəlif bəhanələrlə döyüş bölgəsinə getməyə bilərdi. O illərdə Sarvan kənd ərazi nü-

mayəndəsi yaxın qohum idi. Elçin həmişə deyirdi ki, müharibəyə sən getmə, mən getməyim bəs kim getsin?

Gülbacı Ana, balan Elçin doğma vətən torpağındadır. Vətənin azadlığı, müstəqilliyi uğrunda canını fəda etmişdir. Bir də ki, Gülbacı Ana, Şəhidlər ölmürlər, onlar əbədi cənnət əhlidirlər.

Ruhun şad olsun, Elçin! Bir zamanlar döyüşdüyün, qan tökdüyün torpaqlar azad olmuşdur.

## ELBRUS ZİRVƏSİNƏ YOL ALAN ƏSGƏR




Başı min məşəqqətlər, bəlalar çəkən doğma kəndimdə Murov dağlarında şəhid olan Nail Cahangir oğlunun növbəti ildönümü 11 fevralda yad edilir. 12 fevralda isə daha bir itkin şəhidimizin ildönümü şəhidlər kompleksində, Elbrusun doğmalarının, əzizlərinin əhatəsində qeyd olunur. Müəllimlərin və şagirdlərin iştirak etdiyi anım mərasimində şəhidlər və vətən haqqında şeirlər səslənir, xatirələr söylənilir. Bir məqam məni daha çox duyğulandırır. Şəhid, itkin Elbrusun qardaşı oğlu Elbrus Əsəd oğlu şeir söyləyir. Öyrənirəm ki, o, ikinci sinifdə oxuyur. Dərslərindən 4-5 qiymətlər alır. Məktəblilər bir-bir Sarvan şəhidləri kompleksindəki şəkilləri öpüb əzizləyirlər. Bu, şəhidlərimizə məhəbbətin bariz nümunəsidir.

Gəlin, haqqında söhbət açmaq istədiyim itkin şəhidimizin keçdiyi qısa, lakin şərəfli ömür yoluna nəzər salaq.

Nəzərov Elbrus Hafis oğlu 1975-ci ilin 19 may tarixində

Salyan rayonunun Sarvan kəndində sadə kəndli ailəsində dünyaya göz açmışdır.

İlk və orta təhsilini Sarvan kənd orta məktəbində almışdır. Elbrus çox çalışqan, fəal, elmə maraq göstərən şagird kimi müəllim kollektivinin xatirəsindən indi də çıxmır. Orta məktəbi bitirdikdən sonra sənədlərini ali məktəbə vermiş, kifayət qədər bal yığmadığına görə instituta daxil ola bilməmişdir. Amma heç vaxt ruhdan düşməmişdir. Sinif yoldaşı Vüsal Nurəddin oğlu qeyd edir ki, Elbrusun oxumağa marağı heç vaxt sönmürdü. O, ali təhsilli, ziyalı olacağına əmin idi. Həmişə qeyd edirdi ki, əsgərlikdən qayıtdıqdan sonra ali məktəbə daxil olacağam. Çox heyf ki, onun arzuları ürəyində qaldı. Elbrus hərbi xidmətə 1992-ci ildə Qusar rayonunda, Böyük Qafqaz dağlarının ətəklərində başladı. Yeddi ay hərbi xidmət dövründə nümunəvi əsgər oldu. Artıq o, rabitəçi peşəsinə yiyələnmişdir. Hərbi sirlərə yaxından bələd olmuşdur.

Müşfiq (Pirəşkül) qəsəbəsindən döyüşə yollanan Azərbaycan əsgərinə, onların mətin addımlarla Azərbaycan bayrağı önündə döyüş bölgələrinə gedişi indi də də göz qabağındadır, xatirələrdədir.

Bu məqam dəfələrlə Azərbaycan televiziyasında göstərilir. Elbrus da o mərd, mübariz əsgərlər arasında idi. O, burdan cəbhə xəttinə yollanmışdır.

Döyüşçü dostu, həmkəndlisi Müşfiq Bəşirlinin dediklərindən:

– Elə həmin axşam bizi Cəbrayıl rayonunun Mərcanlı kəndinə gətirdilər. İlk günlərdən döyüşə atıldıq. Elbrus kəşfiyyatçı, rabitəçi olduğu üçün həmişə öndə, irəlidə olur-

du. Biz iki dəfə ağır döyüşdə iştirak etdik. Uşaqlar zarafatca deyirdilər ki, atalar üçdən deyib. Üçüncü döyüşdən də salamat çıxsaq, bizə ölüm yoxdur. Fevralın 11-də 112 nəfərlik bir qüvvə ilə düşmən üstünə atıldıq. Çox ağır döyüş getdi. Yalnız 24 nəfər salamat qaldı, geri qayıtdı. Kimi şəhid oldu, kimi itgin düşdü, kimisidə yaralı. Geriyə qayıtmayanlardan, itkin düşənlərdən biri də Elbrus oldu. Onu "gördüm" deyən olmadı. İndi də gözlərim onu axtarır. Elə bilirəm ki, nə vaxtsa qayıdacaq.

Elbrusun anası Güldəstə Məzahim qızı mənim sinif yoldaşımdır. Səkkiz il birlikdə təhsil almışıq. Əla hafizəsi, yaxşı yaddaşı və səlis nitqi həmişə diqqəti cəlb edirdi. On dörd ildən çoxdur ki, ciyərparəsi Elbrusu haraylayır. Vaxtından tez qocalan, dümağ saçları həna dəyməyən, toy-düyündə qol qaldırmayan Güldəstə anadan çətinliklə də olsa, xatirələrini eşitmək istəyirəm.

Güldəstə ana doğma övladı Elbrus haqqında yana-yana danışır:

– Elbrus nəslimizin və sülaləmizin ilk nəvəsi olduğu üçün hamımız onu çox istəyirdik. O, bizim istəkli, sevimli, balamız, baba və nənəsinin ərköyünü idi. Elə buna görə də o, baba və nənə himayəsi altında böyüdü, boya-başa çatdı. O, dərslərini çox yaxşı oxuyurdu. Yaşatmaq, yaratmaq, qurmaq eşqilə yaşamağa üstünlük verirdi. Asudə vaxtlarında qarmon çalmağı çox sevirdi. Yaxşı səsi var idi. Deyirdi ki, ana ali təhsil ala bilməmişəm, xanəndə olacam. Yanıqlı, xoş avazlı səsi var idi. Çox zəhmətkeş və istiqanlı və gülərüz idi. İnan ki, mənə hər vaxt əziyyət verməzdi. Elbrusun axtarışı düz altı ay çəkdi.

Atası Hafısin, dayısı Zakirin gəzib dolanmadığı yer qalmadı. Əlimiz hər yerdən üzüldü. İndi də gözlərim yolda, qulağım səsdədir. Bircə təsəllim var. Balaca Elbrusun böyüməsi, ali təhsil alması və əmisinin qisasını alacağı günə tam inanıram.

Arzumdur ki, balaca Elbrus da vətən torpaqlarını qorumağa yola salım. Türk şairi Yurdaklum dili ilə desək:

“Haydı oğlum, haydı get,
Ya qazi ol, ya şəhid”.

Elbrusun həyatında dağlıq ərazilər və ucalıq mühüm yer tutur. Adı Qafqazın ən uca zirvəsi, əsgərlikdə xidmət etdiyi ərazi, Şahdağ ətəkləri, döyüşdüyü və itkin düşdüyü ərazi Kiçik Qafqaz dağları.

Şəhid adından uca, müqəddəs və Allah yanında əziz, başqa heç bir ad ola bilməz. Müqəddəs Peyğəmbərimiz Məhəmməd (s.ə.) deyib: “Ölümlərin ən şərəflisi şəhidlərin ölümüdür”.

... Bir də axı, dünyada çoxlu möcüzələr olur. Nə bilmək olar. Bir də gördün, uca zirvələrdən Sarvan kəndinə tərəf bir əsgər gəlir.

Mərd, mətin, iri addımlarla. Gələn əsgər bəlkə də elə Elbrusdur.

Elbrus əsgər! Zirvələrə yol alan Azərbaycan əsgərinə eşq olsun!

Ruhun şad olsun, Elbrus! Qarabağ Azərbaycandır!

Vətən müharibəsində şəhid olanların ruhu şad olsun. Qardaşın oğlu Elbrus Vətən Müharibəsində igidliklə döyüşdü.

# 44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNİN ŞƏHİDLƏRİ

## UCA ÇƏHİDLİK ZİRVƏN MÜBARƏK, ŞƏHİDİM!




Vətən yolunda kəndimiz Qarabağ müharibəsi dövründə 15 şəhid vermişdir. Amma 29 sentyabr tarixi həmkəndlilərimizin yaddaşından heç vaxt çıxmayacaqdır.

Axşamüstü Alməmmədin şəhid olması xəbəri kəndə ildırım sürəti ilə yayıldı. Bəd xəbər dərhal yayıldığından el-oba, qohum qonşu, rayon rəhbərliyi Şəhidin ata ocağına yollandı. Saat 20.30-da Şəhidimiz Sarvan kənd məzarlığına gətirildi. Yol boyu böyük izdiham yaşandı, "Şəhidlər ölməz, Vətən bölünməz" şüarı gur səslə kəndi başına götürdü. Bu, bir birlik çağırışı idi. Sanki düşmənə səslənirdilər: Qarabağ Azərbaycandır! Qarabağ bizimdir!

Tarixini şəhid qanı ilə yazan əsgər bizim şanlı tariximizdir.

... Axşam saatlarında Şəhidimiz canı qədər sevdiyi Sarvan torpağına tapşırıldı.

Gəlin qısa, lakin mənalı ömür və döyüş yoluna qısa nəzər salaq.

Babayev Alməmməd Qərib oğlu Salyan rayonunun Sarvan kəndində 23 noyabr 2000-ci il tarixdə dünyaya öz açmışdır. Ailənin böyük oğlu olduğundan zəhmətə alışmış, ev işlərində

anasına kömək edirdi. Bəzən qoyun-quzunu otarır, bəzən həyət-bacada işləyirdi. Bir sözlə, ata-anaya həyan idi.

İllər ötdü. Alməmməd hərbi xidmətə yola düşdü. Hərbi hissə rəhbərliyi dəfələrlə Alməmmədin atası Qəribə və anası Ruhəngiz xanıma təşəkkür məktubları göndərmişdir. Həmin təşəkkür məktublarından biri 31 dekabr 2019-cu ildə göndərilmişdir:




"Hörmətli Babayevlər ailəsi!

Sizin oğlunuz əsgər Babayev Alməmməd Qərib oğlu bizim hərbi hissədə xidmət edir. Xidmət etdiyi müddət ərzində özünü nizam-intizamlı, bacarıqlı, təşəbbüskar, hərbi nizamnamələrin və qanunların tələblərini layiqincə dərk edən, komandirlərin və rəislərin əmr və göstərişlərini vaxtında, düzgün və dəqiq yerinə yetirən, beləliklə də hərbi xidmətə vətəndaşlıq borcu kimi münasibət göstərən hərbi qulluqçu kimi tanınmışdır. Hərbi kollektivdə nüfuzu vardır. Hərbi biliyini daim təkmilləşdirir. Silah və hərbi texnikanın sirlərinə həvəslə yiyələnir.

Ana Vətənimizin azadlığının, müstəqilliyinin və ərazi bütövlüyünün təhlükə altında olduğu bir vaxtda nümunəvi oğul tərbiyə edib vətənin müdafiəsi üçün hərbi xidmətə göndərdiyinizə görə sizə ürəkdən təşəkkür edirəm.

Rəşid Salmanov,

Polkovnik-leytenant.”.

Alməmməd Ağdamda Minaxor kəndində hərbi xidməti nümunəvi yerinə yetirir və atıcı-pulemyotçu kimi formalaşır. Qərara alır ki, hərbi xidməti başa vurduqdan sonra orduda qalıb işləsin.

Niyyətin hara, mənzilin ora.

Əsgərlikdən tərxis olur. MAXE kimi işə qəbul olur. Əhd edir ki, birinci maaşımı alıb kəndə gedib qurbanlıq quzu alıb kəsəcəm. Elə də edir. Ata ocağına gəlir, qurbanlıq quzu kəsir, ehtiyacı olanlara paylayır.

Atası Qəribin dediklərindən:

“26 sentyabrda mənə zəng etdi. Ağcabədidə olduğunu dedi. Vətən Müharibəsi başlayanda isə oğlum Füzuli və Cəbrayıl istiqamətində döyüşürdü. 5 kəndin düşmənlərdən azad edilməsində yaxından iştirak etmişdir. 29 sentyabrda isə...”. Qərib daha ardını deyə bilmədi. Qəhər onu boğdu. Alməmməd həmin gün qəhrəmancasına şəhid olmuşdur.

Başını dik tut, Qərib! Sən şəhid atasısan! Oğlun Vətənin azadlığı uğrunda igidlik göstərərək şəhid olmuşdur. Şəhidlər ölmür!

Cənnət qapısını ilk şəhidlər açır. Cənnət nəfəsli Alməmməd qanı ilə tarix yazdı.

23 noyabr Şəhidimizin doğum günüdür.

İsfəndiyar Həsənov adına Sarvan kənd tam orta məktəbin şagirdləri, pedaqoji kollektiv və ictimaiyyətin nümayəndələri Alməmmədin doğum gününü qeyd etdilər.

Şagirdlər Sarvan kənd Şəhidlər Xiyabanında və Şəhidin

məzarı önündə şeirlər söylədilər, xatirələr danışdılar.

Şəhidin qonşusu Əvəz Aslanoğlunun dediklərindən:

- İndi Qəribin 3 oğlu var. Heç şübhəsiz ki, onlar da Vətənin qeyrətli oğulları olacaqlar.

Alməmməd hamımızın istəklisi idi. Onu hamımız çox istəyirdik, çünki sözündə dürüst idi. Mehribançılığı ilə hamının rəğbətini qazanmışdır.

Cəsarətli, qeyrətli şəhidimizin ruhu şad olacaqdır. Çünki torpaqlarımız işğaldan azad olunmuşdur.

Ruhun şad olsun, Alməmməd. Qanın alındı. Füzuli şəhəri düşməndən azad oldu. Sən həmişə ürəklərdə yaşayacaqsan.

**P.S.** Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İlham Əliyevin fərmanı ilə Babayev Alməmməd Qərib oğlu “Vətən uğrunda” medalı ilə təltif olundu.

*15.12.2020*

## ASLAN KİMİ DÖYÜŞƏN ASLAN ZABİTİM




Qəhraman kəndimizin daha bir igid şəhidi haqqında sizlərə məlumat vermək istəyirəm. Onun qısa, şərəfli ömür və döyüş yoluna nəzər salaq.

İsmayılov Aslan Əvəz oğlu 1993-cü il 1 iyun tarixində Salyan rayonunun Sarvan kəndində dünyaya göz açmışdır. İlk təhsilinə Sarvan kənd orta məktəbində başlamışdır. 9-ci sinfi bitirib Cəmşid Naxçıvanski adına Hərbi Liseyə yüksək balla qəbul olmuşdur. Liseydə 3 il oxuduqdan sonra sənədlərini H.Əliyev adına Ali Hərbi Məktəbə verərək təhsilini orda davam edib. Məktəbdə çox nümunəvi kursant olub, tələbəlik illərində hərb sənətinin incəliklərinə yiyələnmişdir.

2015-ci ildə Aslan İsmayılov həmin ali məktəbin quru qoşunları motoatıcı mexaniki fakültəsini bitirmişdir. Təyinatla Naxçıvan MR quru qoşunları korpusuna göndərilmişdir. Aslan qısa müddətdə hərbi hissənin sevimlisinə çevrilir. Aslan ibadətkar, təqvalı idi. Dini ayinləri vaxtlı-vaxtında yerinə yetirirdi.

Bir müddət keçdikdən sonra Aslanı Bakıya qaytarırlar. Pirəküşkül qəsəbəsində xidmət edir. Bütün tapşırıqları vicdanla yerinə yetirir.

Sonra Aslan kursa göndərilir. XTQ-da xidmətə başlayır. Desant bölüyünün komandiri vəzifəsinə irəli çəkilir.

XTQ-nin rəşadətli qəhrəmanlığı nəticəsində ordumuz uğurlar qazanır. Məhz Şuşa şəhərinin alınmasında XTQ-nin

rolu əvəzsizdir.

General Hikmət Mirzəyevin cəsur igidləri, əsgərləri hesabına torpaqlarımız erməni işğalçılarından azad edilirdi. Bir sözlə, Aslanın xidmət etdiyi XTQ düşmən üçün qorxulu röya idi.




Atası Əvəz Aslan oğlunun dediklərindən:

- Ona atamın adını qoymuşdum. Atam el sənətkarı idi, aşıq idi, toy şənliklərinin aparıcısı idi...

Aslan 29 sentyabrda Murovda olanda mənə zəng etdi. Demək olar ki, onunla danışa bilmədim, nitqim tutuldu. Boğazım qurudu, qəhər məni boğdu. Telefonu anası Gülbənizə verdim. Anası ilə danışdı, bu bizim Aslanla son danışığımız oldu. Sonralıqca Aslan Füzuli və Cəbrayıl istiqamətlərində döyüşlərə cəlb edilir. Füzulinin alınmasında şəhid olur...

Sonra isə... Əvəz daha danışa bilmədi...

Oğul itkisi, Baş leytenant itkisi, nişanlı oğul itkisi onu çox sarsıtmışdır.

Qonşu Marışlı kəndindən olan MAXE Pünhan Cəbrayılda Aslanla birlikdə döyüşmüşdür. 9 oktyabrda Aslan şəhid oldu. 15 gün sonra isə Pünhan da şəhidlik zirvəsinə ucaldı.

Aslan həmişə nümunəvi hərəkətlərinə görə 052 hərbi hissənin rəhbərliyindən tərifnamələr və fəxri fərman almışdır.

*“30 aprel hərbi hissənin yranmasının 21-ci il dönümünün qeyd edilməsi münasibətilə nizam-intizamı ilə seçildiyinə görə tıltif olunur.*

*Baş leytenant İsmayılov Aslan Əvəz oğlu.*

*052 nömrəli hərbi hissənin komandiri General-mayor Hikmət Mirzəyev.*

*30.04.2020-ci il”.*

Taqım komandiri sertifikatı ilə sizi tanış edim.

*“Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində 03.08.2015-ci il tarixdən 26.12.2015-ci il tarixədək fəaliyyət göstərən motoatıcı taqım komandiri kursunu bitirmişdir.*

*Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin rəisi polkovnik Hilal Nəcəfov*

*TMM rəisinin tədris işləri üzrəmüavini, şöbə rəisi polkovnik-leytenant”.*

Şəhidimizin qardaşı Emin Türkiyədə ali təhsil alıb, hal-hazırda İzmir şəhərində kompüter mühəndisidir.

Aslanla qızğın döyüşlərdə iştirak edən və Salyan Mərkəzi Xəstəxanasında müalicə alan 3 döyüşçü dostu şəhidi ziyarətə gəlmişdilər. Çox təəssüf və qürur hissi ilə bildirdilər ki, Aslan elə Aslan kimi döyüşürdü. Komandir kimi də həmişə mərd, qorxmaz bir zabit idi.

Vətəni sevmək imandandır. O iman ilə doğma Vətəni Qarabağı azad görmək istəyirdi. Ruhu qarşısında baş əyirik.

Qarabağı biz almadıq. Qarabağı başına qara bağlayan, gözünün yaşı qurumayan anaların şəhid övladları aldı. Qarabağı maşınlarda, küçələrdə əllərində bayraq tutub, deyib-gülənlər, oynayanlar almadı. Qarabağı döyüş meydanında əllərini, ayaqlarını, gözlərini itirən igidlər aldı.

Qarabağı kim olduğunu xatırlamayan, qulaqları, dili batan oğullar aldı.

Qarabağı biz isti evlərimizdə yatarkən, döşəyi vətən torpağı, yastığı Vətən daşı olanlar aldı.

Qarabağ bizlərdən çox onların haqqıdır.

Haqqınızı bizə halal edin. Unutmayaq, unutdurmayaq!

9 oktyabrda Şəhidimizin dəfn mərasimində çıxışımda qeyd etdiyim kimi, behiş nəfəsli Aslanım mənim, doğma Sarvan torpağında rahat uyu!

Qanı ilə Zəfər tarixi yazan Aslanım mənim, ruhun şad olsun, qanın alındı! Fizuli yağı düşməndən azad olmuşdur.

**P.S. Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İlham Əliyevin Fərmanı ilə İsmayılov Aslan Əvəz oğlu “Vətən uğrunda” və “İgidliyə görə” medalları ilə təltif edilmişdir.**

***15.12. 2020-ci il***

# MUROV QARTALI




Vətən Müharibəsi başlayandan bir gün sonra doğma kəndimizə şəhid xəbəri gəldi. Bu xəbər bütün el-obanı sarsıtdı. Həyatını Vətən Müharibəsinə həsr edən Zəmanət Gülhəsən oğlu İbrahimov şəhid olmuşdur. Şəhidimizin döyüş və ömür yoluna qısa nəzər salaq. 11 may 1989-cu ildə Salyan rayonunun Sarvan kəndində dünyaya göz açmışdır. Orta məktəbi elə kəndimizdəki məktəbdə başa vurmuşdur. 2007-ci ildə hərbi xidmətə yola düşmüş, 2009-cu ildə isə əsgərlikdən qayıtmışdır.

Əsgərlikdən əvvəl "Dinamo" İdman Klubunda kinq-boksla məşğul olmuşdur. Məşqçisi Hakim ondan çox razı idi. Zəmanət taleyini hərbiyə bağlamışdı. Daxili Qoşunlarda MAXE kimi xidmətə başladı. 2-3 aydan sonra öz istəyi ilə Gəncə şəhərindəki hərbi hissədə 2 il xidmət etdi. Sonradan 2011-ci ildə Murov dağının Ovçu postunda xidmət etdi. 2 il 7 aydan sonra Goranboya təyinat aldı. 2014-cü ildə Zəmanətin toyu oldu. Həmkəndlimiz Fəyazın övladı Sevinclə ailə həyatı qurdu. 2 övladı dünyaya gəldi. Oğluna babası Abdulhəsən, qızına isə Səma adını qoydu.

2019-cu ildə gizir rütbəsi aldı. Goranboyda gənc çağırışçı əsgərlərə hərbi sirləri öyrətdi.

Zəmanət Murov dağının döyüş yüksəkliklərində (3724 metr) xidmət etmişdir. Bu xidmət çox çətindir. Zirvələrdən il boyu qar əskik olmur.

Bir müddət sonra Zəmanət Tərtər döyüş bölgəsinə təy-

inat alır.

Atası Gülhəsən çətinliklə də olsa bunları danışa bildi:

- Ata, mən artıq Tərtərdəyəm. Darıxmayın, hər şey yaxşı olacaq. Allaha əmanət olun...




Zəmanət Talış və Suqovuşan kəndlərinin düşməndən azad olunmasında qəhrəmanlıq göstərmişdir. Bunu Zəmanətin xidmət etdiyi hərbi hissənin siyasi işlər üzrə müavini kapitan Natiq Əzizov deyir:

- Zəmanət bu kəndlərin alınmasında kişi kimi döyüşdü. O, əsl döyüşçü idi. Ermənilərə böyük nifrəti var idi. Zəmanət döyüşdə ağır yaralandı, onu Tərtər şəhərinə hospitala göndərdik...

Zəmanətlə başqa bir yaralı əsgər də var idi. Deyirdi ki, o çox qan itirmişdi, yarası dərin idi. Zəmanət şəhid olanda üzünün təbəssümü, gülüşü yadımdan çıxmayacaq.

Zəmanət 2016-cı ildə Aprel döyüşlərində düşmənə sarsıdıcı zərbələr endirən müzəffər ordumuzun tərkibində idi.

Yağı düşmən ordumuzun döyüş texnikası qarşısında çaş-baş qalmışdı. Çünki hücum əməliyyatlarına mərhum general Polad Həşimov rəhbərlik edirdi. Zəmanət də mərd, qəhrəman döyüşçülərlə birlikdə idi. Ordumuz 4 gün ərzində düşmənə layiqli cavab verdi. Düşmən böyük itkilər verdi, geri çəkilməyə məcbur oldu. Zəmanət Aprel döyüşlərində igidlik

göstərmişdir.

Şəhidimizin anası Səidə xanım əsl qəhrəman anadır, çünki iki övladının ikisi də hərbçidir.

Səidə ananın yana-yana dediklərindən:

- Zəmanət çox ağıllı və vətən sevdası olan bir oğul idi. Çox zəhmətkeş, ürəyiyanan idi. Yurd və vətən sevən bir hərbçi idi. Ata-ananın qədrini bilən idi. Canından artıq sevdiyi vətən yolunda 32 yaşında şəhid oldu. Oğlum həm Şəhid oldu, həm də Qalib. Axı Qarabağımız faşist ermənilərdən azad oldu...

Ailənin ikinci oğlu Dəyanət də taleyini hərbiyə bağlayıb.

Şəmkirdə N saylı hərbi hissədə aviasiya üzrə MAXE işləyir. Ailəlidir, 2 övladı var.

Cənnət yolçuluğun mübarək, Murov Qartalı!

Müqəddəs ruhunuz qarşısında baş əyirik.

Şəhidimizin ömür-gün yoldaşı Sevinc xanımın Dünya TV-ə dediklərindən: "Zəmanət axrıncı dəfə zəng edəndə dedi ki, hər şey yaxşı olacaq, darıxma. Uşaqlardan muğayət ol, çalış onlara təhsil ver. İstəyirəm ki, oğlum oxuyub hərbi həkim olsun.

O, Murovda xidmət etdiyindən həmişə zirvələrdə olurdu. Bir dəfə dedi ki, buludlar ayağımın altındadır, sanki səma və mənəm. Elə ona görə də Zəmanət qızının adını Səma qoydu. Çox qayğıkeş idi. Bir dəfə soyuqlamışdım, qızdırmam var idi. Səhərə kimi yatmadı, sağalmağım üçün hər şey etdi".

Ayrı-ayrı fənlərdən lap 2 qiymət də almaq olar, amma Vətən sevgisi dərsindən Zəmanət öz qanı ilə şanlı tarix yazdı.

Şəhid olduğun Talış kəndi və Suqovuşan indi azaddır. Suqovuşandan axan su torpaqlara can verir. Ruzi-bərəkət artacaq və ruhu da həmişə şad olacaq.

Torpaqlarımız mənfur, faşist ermənilərdən təmizlənmişdir.

Nura qərq ol, Şəhidim!

**P.S. Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İ.Əliyevin fərmanı ilə İbrahimov Zəmanət Gülhəsən oğlu "Vətən uğrunda" medalı ilə təltif olunmuşdur.**

**15.12.2020**

**P.S. S.Bu yaxınlarda şəhid Zəmanətlə əlaqəli əlimə bir video düşdü.**

**Əks hücumun ilk günündə 27 sentyabrda artıq Zəmanət düşmən səngərində idi. O deyirdi: "27 sentyabr 2020. Biz artıq düşmən səngərindəyik, düşmən silahı qoyub qaçıb. Düşmən məni vurmaq istəyirdi, amma ürəyimin üstündəki silah mağazasına dəydi. Vətən sağ olsun! Hər şey Vətən üçün!".**

# BAŞ TACIMIZ TACƏDDİN




Doğma Sarvan kəndi belə izdiham görməmişdi. Axı bu gün Qəhrəman bir Vətən oğlunu əbədi torpağa tapşırırdıq.

Şəhidimizin dəfni zamanı nahiyyə qazisi Hacı Hüsnü çıxışında qeyd etdi ki, Allah yolunda Şəhid olanlara ölü deməyin. Onlar Allah dərgahında diridirlər. Lakin siz bunu dərk etmirsiz. Torpaq su ilə qarışanda palçıq olur, amma torpaq şəhid qanı ilə qarışanda Vətən olur. Hər bir şəhid vətəndir.

Tacəddin Şahəddin oğlu Əzizli 7 avqust 1994-cü ildə Salyan rayonunun Sarvan kəndində anadan olmuşdur.

Vətən Müharibəsi başlayanda səfərbərlik elan edildi. Tacəddin də Vətənin müdafiəsinə qalxdı. 44 gün yağı düşmənlə igidliklə, mərdliklə döyüşdü. Döyüş yolu Füzuli, Hadrut, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Şuşa şəhərinədək davam etdi. Tacəddin orta məktəbi bitirib təhsilini Ukraynanın Xarkov şəhərində Dövlət Ticarət və Qida Sənayesi İnstitutunda Menecment fakültəsində 5 il təhsil alır, vətənə dönür. Hərbi xidmətə çağrılır. Bir illik xidməti zamanı döyüş texnikasını dərindən öyrənir. Raket artilleriya döyüşçüsü kimi formalaşır. Bir müddət iş axtarır, 2020-ci ilin iyul ayında Makro 2000 türk şirkətində əmək fəaliyyətinə başlayır. Vətən Müharibəsi başlanmazdan öncə sentyabrda hərbi təlimə çağırılır. Vətən Müharibəsi dövründə Fizulinin Aşağı Seyidəhmədli və Ələsgərli kəndlərinin işğaldan azad olunmasında əsl qəhrəmanlıq göstərir.




Tacəddin döyüşçü yoldaşları ilə beton bunkerləri qəfil hücumla yarmış, düşməni məhv etmiş, xeyli sursat və 5 avtomobilini qənimət kimi əldə etmişdir.

Tacəddin Qarabağı qanı kimi sevirdi. Döyüşçü yoldaşlarından biri video paylaşmlşdı. Tacəddingil Şuşa şəhərinə piyada gedirlər, döyüş yoldaşı soruşur ki, Ukrayna meşələri də gözəldir?

Tacəddin isə deyir:

- Bura Qarabağdır. Ukrayna heç belə ola bilməz!

8 noyabrda Şuşa işğaldan azad olur. Ayın 9-da Tacəddin və onun döyüş dostlarına Laçın dəhlizində mövqe tutmağı tapşırırlar.

44 gün düşmənlə qəhrəman kimi döyüşən Tacəddin axşam saatlarında şəhid olur. Bir-iki saatdan sonra isə protokol imzalanacaqdı...

Tacəddin Əzizli soyadını daşıyan qohum-əqrabanın sevimlisi və istəklisi idi. Çox mehriban uşaqlığı var idi. Ad günlərinə yığışardıq. Ad günlərinin birində ona bir şeir yazmışdım...

*Səni görək Vətən üçün igid, türk,*
*Ey soy-kökü elə bağlı, Tacəddin.*
*Ayaması Mustafa Bəy Atatürk,*
*Aranlı, Muğanlı, dağlı, Tacəddin.*

*Qoy taleyin işıq saçsın əbədi,*
*Ad bayramın, təvəllüdün mübarək!*
*Atan Şahəddin tək elm məbədi,*
*Qur-yarat söyləyək, günün mübarək!*

Qələbə şeirini gərək mən yazaydım, amma qələbə şeirini al qanları ilə Vətən torpağına yazdı Şəhidlər.

Bəli, Tacəddin al qanı ilə Qələbə sevinci yazdı, həm də Qələbəyə 3-4 saat qalmış.

Şəhid olduqdan sonra Tacəddinin istəkli bibisi, anası Fazilə kimi sevdiyi Gülarə xahiş etdi ki, Qəhrəman Tacəddinə şeir yazım.

Artıq bu şeir bütün yaxınların, məktəblilərin əzbər söylədiyi şeirdir. Şeir kitabda "Şeirlər" bölməsində yer almışdır.

Tacəddinin böyük qardaşı Emilin dediklərindən:

*"Qardaşım olduğu üçün demirəm, o, əsl qəhrəmandır. Qarabağda döyüş bölgəsində rayonların, kəndlərin işğaldan azad olunmasında böyük şücaət göstərmişdir. Milli Qəhrəman rütbəsində olan igiddir. Bunu onun döyüşçü yoldaşları da təsdiq edə bilər".*

Cənnətə ilk girən məhz şəhidlər olacaqlar. Yerin cənnətdir, Baş Tacımız Tacəddin!

Vətən Müharibəsində 44 gün düşmənlə döyüşən Tacəddin qanı ilə şanlı tarix yazdı.

*Tarix yazdın qanınla,*
*Vətən eşqli canınla.*

*Üç rəngli bayrağınla,*
*Baş Tacımız Tacəddin!*

**P.S.** Hələ Tacəddin məktəbli ikən Qarabağ mövzusunda təlim-seminarda fərqlənmişdir:

*Qarabağ mövzusunda təlim-seminarda uğurlu iştirak üçün Ləvərli Qəsəbə üçün Avropa Tərəfdaşlığı Dağlıq Qarabağ münaqişəsinin sülh üçün gənc liderlər.*

*7 iyun-10 iyun 2011, Bakı, Azərbaycan*

*Azərbycan Milli Komitəsinin sədri Helsinki Vətəndaş Məclisi Arzu Abdullayeva*

*Koordinatorlar:  Famil Məmmədov*

**P.S.** Tacəddin hərbi xidmət keçərkən hərbi hissə komandiri polkovnik-leytenant İldırım Ağayev cənablarının imzası ilə Xasiyyətnamə göndərmişdir:

*Əsgər Əzizli Tacəddin Şahəddin oğlu 2-ci tank əleyhinə raket kompleksləri batareyasında xidmət etdiyi müddət ərzində özünü nizam-intizamlı, bacarıqlı, işgüzar bir hərbi qulluqçu kimi göstərmişdir. Komandanlıq və yuxarı rəislər tərəfindən verilən tapşırıqları vaxtında icra etməyə səy göstərir. Tutulan nöqsanlardan nəticə çıxarmağı bacarır. Vəzifə borcunun öhdəsindən gəlir. Hərbi geyim formasını pozmur. Ümumqoşun nizamnamələrinin tələblərini bilir. Özünün layiqli hərəkətləri ilə yuxarı komandanlıq qarşısında öz nüfuzunu yüksəldir. Hərbi nəzakət və davranış qaydalarına riayət edir.*

*Fiziki cəhətdən sağlamdır, fiziki hazırlığı qənaətbəxşdir. Dövlət sirrini qorumağı bacarır.*

*2-ci Tank əleyhinə raket kompleksləri batereyasının komandiri kapitan Tural Namazəliyev*

*"Xidməti xasiyyətnamə ilə razıyam".*

*060 nömrəli hərbi hissə komandiri polkovnik-leytenant İldırım Ağayev*

**18.10.2018**

**P.S. Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan İ.Əliyevin fərmanı ilə Əzizli Tacəddin Şahəddin oğlu "Vətən Uğrunda" medalı ilə təltif olunub.**

**15.12.2020**

**P.S.S. 29 dekabr tarixində Prezidentin Sərəncamı ilə Tacəddin Əzizli "Şuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdir.**

# DÖRD BACININ ŞƏHİD QARDAŞI




Şəhidliyi ilə ölməzliyə qovuşan kəndimizin 16-cı qəhrəmanı Cavad ömrünün bahar çağında Sarvan torpağında dəfn edildi.

Qarabağın azadlığı üçün qanı ilə şanlı tarix yazmış Cavad böyük izdihamla torpağa tapşırıldı.

Vətən Müharibəsi Müzəffər Ordumuzun qələbəsi ilə başa çatmışdı. Ata-anası Cavadı qəhrəman kimi qarşılamağa hazırlaşırdı... Amma qara xəbər Asif ocağına sürətlə yayıldı. Cavad Xocavənd rayonunda döyüşçü dostları ilə minaya düşüb şəhid olmuşdu...

Gəlin Cavadla yaxından tanış olaq:

İsmayılov Cavad Asif oğlu 22 oktyabr 2001-ci ildə Salyan rayonunun Sarvan kəndində dünyaya göz açıb. Orta təhsilini İ.Həsənov adına Sarvan kənd orta məktəbində bitirmişdir. Arzusu hərbçi olmaq idi, buna görə də sənədlərini Daxili Qoşunların Ali Hərbi Məktəbinə vermiş, lakin müsabiqədən keçə bilməmişdir. Sonralar Dəmiryolu Metropoliten Liseyinə qəbul olmuşdur. 2 ay təhsil aldıqdan sonra hərbi xidmətə çağırılmışdır. 052 saylı hərbi hissədə sürücü kimi xidmət göstərmişdir.

XTQ-da xidmət edərkən hərbi hissə rəhbərliyinin rəğbətini qazanmışdır. Elə oradaca qarşısına məqsəd qoyur ki, əsgərliyini başa vurub MAXE kimi hərbidə işləyib Vətənə xidmət etsin. Axı hərbçi olmaq onun çoxdankı arzusu idi...

Şəhidimizin döyüş yolu Füzuli, Cəbrayıl və Hadrutdan

başlayır. Sürücü kimi döyüş bölgələrinə hərbi sursat daşıyır. Top, zirehli raket qurğularını, hərbi sursatı döyüşçülərə çatdırır. Xocavəndin və Azıx mağarasının alınmasında iştirak edir. Hər dəfə evə zəng edəndə atasına şad xəbərlər verirdi:




- Ata, bu gün Cəbrayıl rayonunun 4 kəndi işğaldan azad oldu. Amma bir dəfə danışanda qəhərdən danışa bilmədi; atasına qəhərlə başa saldı ki, həmkəndlimiz Aslan Əvəzoğlu şəhid olub. Axı Aslan da XTQ-də xidmət edirdi, Baş leytenant, bölük komandiri idi.

Noyabrın 8-i axşam saat 4-dəki zəngi isə daha gözəl xəbər idi. Atası deyir ki, Cavad sanki sevincindən ağlayırdı. Şuşa şəhəri düşməndən azad olunmuşdur.

Cavad Ordumuzun qələbəsi şərəfinə keçirilən hərbi paradda iştirak edib, Zəfər Qələbəsi sevincini qürurla yaşamışdı. Hərbi xidmətini başa vurmaq üçün Cavad yenidən düşməndən azad olmuş Füzuli, Cəbrayıl və Xocavəndə qayıdır...

Dekabrın 16-da saat 14.00 radələrində "Pikap" maşını ilə Xocavəndə gedərkən palçıqlı yolda maşın sürüşür və mina partlayışı ilə Cavad şəhid olur. Onunla birlikdə komandiri və döyüşçü dostu şəhid olur.

Şəhid qanı hopmuş hər qarış torpaq Vətəndir!

Fatimə Səhhətqızı şəhidimiz haqqında yazır:

*Saçına yağacam bəyaz qar kimi,*
*Mən sənin ömrünə tez gələn qışam.*

*Ağlama, anacan, unutma ki, mən,*
*Şəhid olmaq üşün yaradılmışam.*

*Qurduğum arzular, bir də ümidlər,*
*Toysuz otağımın bəzəyi qaldı.*
*Mənim adım, sanım, canımsan, Vətən,*
*Sənin torpağına qanım halaldı.*

4 bacının tək qardaşı olan Cavad ailədə çox sevilirdi. Biraz da ərköyün idi. Valideynləri onun ad günündə qurban kəsirdi. İstəkli balaları Ayşən, Gülşən, Nuridə və Gülnar aşağıdakı bayatını söyləyirdilər:

*Əziziyəm, vay qardaş,*
*Günəş qardaş, ay qardaş.*
*Şəhadətin mübarək,*
*Gəl görüşək, ay qardaş.*

Şəhidimizin sinif rəhbəri olmuş Qabil Səfərlinin ded-iklərindən:

– Mənim 6 il rəhbəri olduğum sinfin ən şən və mehriban şagirdlərindən biri Cavad idi. Cavad öz ailəsini, dostlarını sevdiyi qədər vətənini də sevən bir oğlan idi. Dostları ona – Sən evin tək oğlu, 4 bacının 1 qardaşısan, əsgər getmə, -deyəndə, Cavad – Əsgərlik mənim vətənimə olan borcumdur, mən bu borcu qaytarmalıyam, - deyirdi. Cavad hərbi dərsində dedi: “Bir gün mən də igid qardaşlarımız kimi döyüşmək və düşmən üzərində qələbə çalmaq istəyirəm”. 20 Yanvar təd-

birlərində deyirdi: "Onlar ölməyiblər. Əgər biz şəhidlərimizi unutsaq, o zaman ölərlər. Bizim borcumuz onları yaşatmaqdır. Bir gün onların qisasını almalıyıq!..".

Ruhun şad olsun, Cavad!

Cavad müxtəlif tədbirlərdə şeir deyərdi. Diqqətimi çıxışlarıının birində dediyi misralar cəlb etdi:

... Qoymaram dodağın ölümdən deyə,
Mən özüm ölərəm...
Bilirsən niyə?
Torpağın altında yatırsız deyə,
Torpağın üstündə gəzə bilmərəm....

Şəhidimizin anası Zinyət xanımın Dünya TV, ARB və ATV-də çıxışlarını dinlədim və bir neçə cümləsini sizinlə bölüşürəm:

– Oğul Vətənə gərəkdir, Vətən üçündür. Vətən üçün arxa, el üçün arxadır. Cavad dünyaya gələndə həkimlər dedi ki, əsgərimiz dünyaya gəlib. Cavad çox vətənpərvər uşaq olub. Çox yüksək ruhla biz onu əsgərliyə yola saldıq. Adını da Qurandan götürmüşdük. Çox ataya-anaya yanan idi. Hörmətimizi tutan uşaq olub Cavad... Məktəbin bütün ictimai işlərində fəal iştirak edirdi, şeir söyləməyi xoşlayardı... Yerin cənnətdir, oğlum. Ruhun şad olsun. Biz sən heç vaxt unutmayacağıq. Xatirən həmişə əbədi yaşayacaqdır...

Rahat uyu, Şəhidim...

Vətən səninlə qürur duyur. Atan Asifin, anan Zinyətin, bacılarının baş tacı Cavadım.

**P.S. İsmayılov Cavad Asif oğlu "Vətən uğrunda" medalı ilə təltif olunmuşdur. (ölümündən sonra)**

## CANINI FƏDA ETMƏYƏ HAZIR OLAN QAZİMİZ



2020-ci ilin dekabrın 31-i axşam saatlarında Sarvan kəndinin qədirbilən sakinləri magistral yolun kənarına yığışmışdılar.

Axı bu gün ordudan tərxis olunan Qazimiz, kapitan Abuşov Eltac Şəmsəddin oğlu Vətən Müharibəsinin qalib oğlu kimi kəndinə qayıdırdı. El-oba Eltacı sevgi-məhəbbətlə ata ocağına qədər müşayiət etdilər. Ata-anaya göz aydınlığı verdilər.

Gəlin Qazimizin ömür və döyüş yoluna qısa nəzər salaq. Abuşov Eltac Şəmsəddin oğlu 1976-cı il avqustun 13-də Salyan rayonunun Sarvan kəndində dünyaya gəlmişdir.

O, orta məktəbi yüksək qiymətlərlə bitirmişdir və Prezident Yanında Dövlət İdarəetmə Akademiyasına qəbul olmuşdur. 1998-ci ildə Akademiyanı bitirmiş, akademiyada hərbi kafedra olduğuna görə Baş leytenant rütbəsi almışdır.

Ötən ilin sentyabrın 21-də Səfərbərlik üzrə Hərbi Komissarlığa çağırılmış, Beyləqanın 702 saylı hərbi hissəsinə göndərilmişdir. O, 4-cü taborun 10-cu bölüyünün şəxsi iş üzrə müavini təyin edilmişdir. Qısa müddət ərzində şəxsi heyət arasında böyük nüfuza malik olmuşdur.

Eltacın döyüş yolu Füzuli-Cəbrayıl istiqamətində başlamışdır. Kəndlərin, qəsəbələrin və rayon mərkəzlərinin alınmasına xüsusi qəhrəmanlıq və şücaət göstərmişdir. Xüsusən Şuşa kəndinin düşmənlərdən azad olunmasında igidlik göstərmişdir. Düşmənin bir tankını, onlarla canlı qüvvəsini məhv etmişdir.

Sentyabrın 30-da Nürgər kəndinin azad olunmasında ağır kəllə-beyin travması almışdır.

Əvvəlcə Şirvan şəhərində 10 gün müalicə almış, sonra Bakı şəhərində Mərkəzi Tibbi Hospitalda müalicəsini davam etdirmişdir. Sağalandan sonra yenidən cəbhəyə göndərilmişdir. Qeyd edim ki, Qazimiz həkimlərin ona verdiyi qısamüddətli istirahəti qəbul etməmiş, döyüş bölgəsinə getməyi üstün tutmuşdur. Ermənilərdən alınmış Hadrut şəhərinin mühafizəsində iştirak etmişdir.

Eltac dekabrın 1-dən 31-dək Laçın dəhlizinin mühafizəsində təcrübəli zabit kimi şəxsi heyəti ilə yaxından iştirak etmişdir.

Qazimizin dediklərindən:

– Müzəffər Qalib Ordumuzun bu tarixi qələbəsini Ali Baş Komandanın "Dəmir yumruğu" və Şəhidlərimizin qanı hesabına əldə etdik. Şəhidlərin ruhu qarşısında baş əyirəm.

Şuşanın alınması düşmənin belini qırdı. Şuşanın fəth edilməsi hərb tariximizin böyük uğurudur. Eşq olsun Azərbaycanın qeyrətli oğullarına!

Cənab kapitanımız yeni ilin ilk günü Sarvan kənd qəbiristanlığında uyuyan şəhidlərimizi ziyarət etdi. Sevimli dayısı oğlu, baş tacımız Tacəddin Əzizlinin məzarı önündə duyğusal anlar yaşandı...

Eltac ailəlidir. Ömür-gün yoldaşı Səbiyyə xanımla Turan və Orxan adında 2 oğul böyüdür. Heç şübhəsiz ki, onlar da ataları kimi yurda, elə bağlı vətəndaş olacaqlar. 3 rəngli bayrağı yüksəkliklərə qaldıracaqlar və deyəcəklər:

*Əziziyəm, el tacı,*
*Mahal tacı, el tacı.*
*Qazi gəlir Sarvana,*
*Qarşılayın Eltacı.*

# HƏRBÇİLƏR AİLƏSİ



Əziz oxucularım, sizi bir hərbçi ailəsi ilə yaxından tanış etmək istəyirəm. Mənalı həyatlarını bütünlüklə hərb sahəsinə həsr edən vətənpərvər insanları siz də tanıyın:

Ailənin böyüyü İsmayılov Zülfüqar Turab oğlu 1959-cu il avqust ayının 12-də Salyan rayonunun Sarvan kəndində dünyaya gəlmişdir. Orta təhsilini Sarvan kənd orta məktəbində başa vurmuşdur. Sonra Salyan şəhər 76 saylı peşə məktəbində oxumuşdur. Hərbi xidməti ADR (Almaniya Demokratik Respublikasında) topçu alayının tuşlayıcısı kimi xidmət etmişdir. Nümunəvi xidmət göstərdiyinə görə onu SSRİ-yə Qorki şəhərinə hərbi məktəbə göndərirlər. Oxuduqdan sonra gizir kimi Almaniyaya qayıtmış və 7 il orda xidmət etmişdir. Sonralar Pribaltikada, Gürcüstanda işləmiş, sonra Azərbaycana Xıdırlı hərbi hissəsinə atıcı silahlar üzrə bölmə rəisi təyin edilmişdir.

Birinici Qarabağ Müharibəsi başlayanda Zülfüqar da Vətənin müdafiəsinə qalxdı. Ağdamda, Sırxavənd və Çəmənli kəndlərində ağır döyüşlərdə iştirak etdi. Zülfüqar müharibədən qayıtdıqdan sonra Ələt qəsəbəsində N saylı hərbi hissənin Mühafizə Xidmətinin bölmə komandiri kimi xidmətə başladı. 2003-cü ildə İsmayılov Zülfüqar təqaüdə çıxıb. O, Silahlı Qüvvələr Veteranıdır. Qaradağ rayon Veteranlar Şurasının üzvüdür. Ailəlidir, 2 oğlu, 5 nəvəsi var.

Böyük oğlu İsmayılov Ramil Züıfüqar oğlu 1982-ci ilin 26 fevralında Salyan rayonunun Sarvan kəndində anadan olmuşdur. 8-ci sinfi bitirib C.Naxçıvanski adına Hərbi Liseydə oxumuş, sonra isə H.Əliyev adına Ali Hərbi Akademiyaya daxil olur.




Akademiyanı bitirib təyinatla Şəmkir korpusuna taqım komandiri göndərilir. İxtisasca Ramil topçudur. Atası Zülfüqar da topçudur. Sonralar Ramil Beyləqan Korpusuna N saylı hərbi hissəyə bölük komandiri göndərilir.

Ramil aprel döyüşlərində xüsusi fərqlənmiş, qəhrəmanlıq göstərmişdir. Onun şücaətini rəhbərlik yüksək qiymətləndirmişdir. Rəhbərlik Ramil Zülfüqaroğlunu polkovnik-leytenant rütbəsinə layiq görmüşdür.

Vətən Müharibəsi başlayanda Ramil bir komandir kimi Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və Şuşa şəhərinin alınmasında yaxından iştirak etmişdir. Cənab Polkovnik hal-hazırda Şuşa şəhərində Artilleriya Dvizyon komandiri kimi xidmət edir.

Ali Baş Komandanın sərəncamı ilə R.İsmayılov "Vətən uğrunda", "Fizulunun azad olunması uğrunda", "Xocavəndin azad olunması uğrunda" medalları ilə təltif edilmişdir.



İkinci oğlu Rauf 1984-cü ildə Almaniyanın Likin şəhərində dünyaya gəlmişdir. (Həmin illərdə atası Zülfüqar Almaniyada hərbi xidmətdə gizir kimi işləyirdi).

Rauf da taleyini hərbiyə bağlayıb. Hal-hazırda N saylı hərbi hissədə yanacaq bazasında gizir rütbəsində çalışır.

Vətənin layiqli övladlarına gəlin biz də cansağlığı arzulayaq. Sonda Zülfüqarın 5 nəvəsinin də Vətən üçün layiqli övladlar olmalarını arzu edək.

## BİZ QƏLƏBƏ ÇALACAĞIQ

*(Şəhid Həsrəddin Abuşovun övladlarının dilindən)*

*Səsləyirik səni, ata,*
*Ad gününə yığışmışıq.*
*Gül-çiçəkdən hörüb buta,*
*Məzarına toplaşmışıq.*

*Ömür vəfa eyləmədi,*
*Babam qonşun olub, ata.*
*Heç ilini gözləmədi,*
*Bəlkə əhdə-kama çata.*

*Arxayın ol, ata, bu gün,*
*Anam çəkir cəfamızı.*
*Şəhid oldun vətən üçün,*
*Ucaltdın ad-sanımızı.*

*Böyüyürük yavaş-yavaş,*
*Qisasını alacağıq.*
*Söyləyirik iki qardaş:*
*Biz qələbə çalacağıq!*
*Biz qələbə çalacağıq!*

**16.01.1995**

Şəhid oğullarının arzusu çin oldu. Biz Qələbə çaldıq, biz Qalib gəldik.

Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!

Fədai və Emin demişkən, biz Qələbə çaldıq!

## DAYIM LAY-LAY

*Aynurun dilindən dayısı şəhid Həsrəddin üçün*

*Qara yanvar qaralıdı,*
*Güllə dəyib yaralıdı.*
*Hey sorurlar, haralidi?*
*Qoy dərdlərin sayım lay-lay,*
*Dayım lay-lay, dayım lay-lay.*

*Ağdam qara dam olubdur,*
*Gül-çiçəyi tez solubdur.*
*Ürək dərd-sər ilə dolubdur,*
*Qış olubdur yayım lay-lay,*
*Dayım lay-lay, dayım lay-lay.*

*Ad gününü salamlayır,*
*Atam-anam hey ağlayır.*
*Qohum-qonşu haraylayır:*
*Tez ol, qayıt, dayım lay-lay,*
*Dayım lay-lay, dayım lay-lay.*

**05.01.1995**

## DOĞMA SARVANIM MƏNİM

*Hər biriniz qəhrəman,*
*16 şəhidli Sarvan.*
*Ürəklərdə yaşayan,*
*Doğma Sarvanım mənim.*

*Şad olsun qoy ruhunuz,*
*Yarı qaldı arzunuz.*
*Cənnətlikdi yolunuz,*
*Doğma Sarvanım mənim.*

*Şöhrətlisən əzəldən,*
*Doymaz şeir-qəzəldən.*
*Sözlə saray düzəldən,*
*Doğma Sarvanım mənim.*

*Alındı Şəhid qanı,*
*And yerimizi tanı.*
*Şəhidlər xiyabanı,*
*Doğma Sarvanım mənim.*

*Qazilərimiz var olsun,*
*Düşmənimiz xar olsun!*
*Şeirim yadigar olsun,*
*Doğma Sarvanım mənim.*

**08.11.2020**

**Qeyd: Doğma kəndimizdə Şəhidlər Xiyabanı salınmışdır. Bunu kəndimizə ərmağan edən həmkəndlim "Aran" İdman Klubunun rəhbəri, xeyriyyəçi Vüqar Ramiz oğluna təşəkkür edirik. Onu da qeyd edim ki, Vüqar bəy "Sarvan Şəhidləri" və "Bala Kürün Nəğmələri" kitablarımın sponsoru olub. Sağ ol Vüqar bəy, Allah razı olsun!**

# MÜXTƏLİF İLLƏRDƏ YAZILAN ŞEİRLƏR

## *Qəzəl*

*Hər gülün, hər çiçəyin zamanı var, dövrana görə,
Hər kəsin dərdi var, dərmanı var cana görə.*

*Çıxmayasan ölçüdən bircə qarış da kənara,
Məsəl var eldə, uzadır ayağını insan yorğana görə.*

*Sərvətimiz Kür qırağı, "Ana Kür"ün mahnısıdır,
Tanınır Salyanımız Pənah, Bəylər, Qurbana görə.*

*Sevgidi yaradan, eşqidir yaradan bəşəri,
Düşdü çöllərə Məcnun, Leyli tək ceyrana görə.*

*Əl açaq haqqın dərgahına, yalvarağın gecə-gündüz,
Çün yaradıb yer kürəsin yarada Qurana görə.*

*Parçalnmış məmləkətik, o tay, bu tay Türk elidir,
Can fəda eyləyərəm bütöv Azərbaycana görə.*

*Vətən məndən başlanır, gərək bunu dərk edəyin,
Firdovsu Sarvanlı da oldu kəndi Sarvana görə.*

## QARABAĞ BAYATILARI

*Əziziyəm bizimdi,*
*Güllər bitən bizimdi.*
*Can qoyduq Qarabağda,*
*Bütöv Vətən bizimdi.*

*Əziziyəm Qara, bax*
*Dağ başında qara bax.*
*Yaxşı dedi komandan:*
*Azərbaycan Qarabağ!*

*Əziziyəm Kəlbəcər,*
*Bizimdi bax, Kəlbəcər!*
*Hər qarışı qızıldır,*
*Buyur, get, ək, becər!*

*Əziziyəm Xankəndim,*
*Ağa kəndim, xan kəndim*
*Dağlıq Qarabağımızın*
*Baş tacısan, Xankəndim!*

*Əziziyəm dağ-dərə,*
*Gül-çiçəkli dağ-dərə.*
Düşməndən azad oldu,
Qəhrəman yurd Ağdərə!

*Açın qapıları, açın,*
*Bax, Laçın gəlir, Laçın!*
*Mərd ərənlər yurdudur,*
*Haydi, haylar, tez qaçın.*

*Haydı Qubadlım, haydı,*
*Düşmən gəbərir, vaydı.*

*Zəfər qələbə bizim,*
*Bayraq, ulduzlu aydı!*

*Səfalı Xocavəndim,*
*Ağoğlan Xocavəndim.*
*Cənnət qucağında mən,*
*Gərək bu il dincəlim.*

*Əziziyəm Ağdama,*
*Qara dama, ağ dama.*
*Yurduma göz dikənin,*
*Gözlərinə ağ dama!*

*Əziziyəm Cəbrayıl,*
*Azərbaycan Cəbrayıl.*
*Xudafərin körpüsü,*
*Bizimdi can, Cəbrayıl!*

*Əziziyəm Zəngilana,*
*Yol gedir Zəngilana.*
*Üçrəngli bayrağımız,*
*Asıldı Zəngilana!*

*Əziziyəm varanda,*
*Ad qoyublar Varanda.*
*Söküb atdıq yad sözü,*
*Fizuliyə varanda.*

*Əzizinəm xoş gəldi,*
*Ürəklər cuşa gəldi.*
*Harda qalmaq istərsən,*
*Ağlıma Şuşa gəldi.*

# BAŞ TACIMIZ TACƏDDİN

*Vətən üçün doğuldun,*
*Qeyrətli bir oğuldun.*
*Qarabağda can qoydun,*
*Baş tacımız Tacəddin!*

*Behişt nəfəsli ərən,*
*Cənnətdən də gül dərən.*
*Bayrağımıza bələnən,*
*Baş tacımız Tacəddin!*

*Tarix yazdın qanınla,*
*Vətən eşqi canınla.*
*Üç rəngli bayrağınla,*
*Baş tacımız Tacəddin!*

*Vətən sənsən, Qəhrəman,*
*Ürəklərdə yaşayan.*
*Zirvəyə qalxdı Sarvan*
*Baş tacımız Tacəddin!*

*Əziziyəm acım var,*
*Şirinim var, acım var.*
*Şəhidlik zirvəsində*
*Tacəddin tək tacım var!*

**21.11.2020**

# ENMƏK ÜÇÜN QALXMAYIB ÜÇ RƏNGLİ BAYRAĞIMIZ

***Azərbaycan Milli Ordusunda xidmət edən oğlanlarım Tariyel və Səbuhi üçün***

*Məmməd Əmin babamız ucaltdı bayrağımı,*
*Bütün dünya tanıdı Od yurdu torpağımı.*
*Yağı düşmən tapdayır gör necə oylağımı...*
*Ümidimiz kimidir sönməyən çırağımız,*
*Enmək üçün qalxmayıb üç rəngli bayrağımız.*

*İnanır çoxu buna, bəlkə də qaytardılar,*
*Yadların kölgəsində zaman-zaman yatdılar.*
*Bərəkətli elimi dilim-dilim satdılar,*
*Hanı qabaq gördüyün çəkiclə orağımız,*
*Enmək üçün qalxmayıb üç rəngli bayrağımız.*

*Şəhid qanı boyadı torpağı qızıl qana,*
*Neçı-neçə igid ər qurban oldu yurduna.*
*... Kitab yazdım şəhid üçün ürəyim yana-yana,*
*Başımıza min oyun gətirdi qonağımız,*
*Enmək üçün qalxmayıb üç rəngli bayrağımız.*

*Unutmayın tarixi, türk oğlu türklərik biz,*
*Poladdan daha möhkəm, bərk oğlu bərklərik biz.*
*Bütöv Azırbaycanı inamla bəklərik biz,*

*Çindən, Sibirdən gəlir tarixi sorağımız,*
*Enmək üçün qalxmayıb üç rəngli bayrağımız.*

*BMT-dən, ATƏT-dən gəlir indi səsimiz,*
*Müstəqillik, azadlıq təkcə bizim bəsimiz.*
*Firdovsi Sarvanlıyam, əyilməzdir qəddimiz,*
*Düşmənə göz dağıdır adımız, həm soyumuz,*
*Enmək üçün qalxmayıb üç rəngli bayrağımız.*

# ÇƏKİRƏM

*Mənə ürəyin yanır,*
*"Siqaret çəkmə!" deyirsən.*
*Bəli, neçə illərdir ki,*
*Bu adəti tərgitmirəm.*
*Fikirlərim, duyğularım*
*Ağrılarım çoxalıb.*
*Əsəblərim daralıb,*
*Əlim-ayağım əsir.*
*Bunu yəqin bilirsən,*
*"Siqaret çəkmə!" deyirsən.*
*Bəs sən nə çəkirsən*
*Bəlkə həsəd, bəlkə*
*Vətən qeyrəti çəkirsən?!*
*Bəlkə qarışqa kimi*
*Özündən çox ağır-ağır yükü,*
*Sürükləyib çəkirsən?*
*Bəlkə nizam tərəzisində*
*Hər şeyi düz çəkirsən?*
*Sakit, axmaz sularda*
*Bəlkə avar çəkirsən?*
*Axı niyə susursan,*
*Desənə axı, sən nə çəkirsən?*
*Barı siqaret çəkmirsənsə*
*Vətən, torpaq dərdi çək,*
*Qaçqın, köçkün dərdi çək!*
*Bilirsən sən nə çəkirsən,*

*Lopa bığlarına, seyrək saçlarına,*
*Hər gündə yağ çıkirsən.*
*Cavan görünüm deyə,*
*Ürəyə dağ çəkirsən*
*Elə buna görə də*
*Mən siqaret çəkirəm.*
*Həm dərdini çəkirəm,*
*Həm siqaret çəkirəm...*

# ŞAİR DOSTUM TOFİQ KƏRİMİN 60 İLLİK YUBİLEYİNƏ

*“Yuxuda qızını gəlin köçürən...”*
*Dinlədim bu şeiri, gözlərim doldu.*
*Gül balanı “Vağzalı”ya ötürən*
*Muğanlı şairim, yuxun çin oldu.*

*Şair yaşlanırsa, demək duyğulu,*
*Dərdə məlhəm olur dostlar, tanışlar.*
*Taleyi, qisməti olsa uğurlu,*
*Qüruba yönəlməz iti baxışlar.*

*Muğanda zirvə yox, səhralı düzlər,*
*Tofiqdir saflığın uca zirvəsi.*
*Masabəyi kimi dediyin sözlər,*
*Artırır insanda şövqü, həvəsi.*

*“Sənin gözlərində gördüm zindanı”,*
*Ulutürkə olan məhəbbətini.*
*“Dədə Qorqud” kimi mükəmməl dastan,*
*“Şair, şeir, ədəbiyyat” sənindi.*

*“Dünyanın sirləri” mükəmməl əsər,*
*Oxuyan istəyir bir də oxusun.*
*“Da Vinçinin kodu”, “İki dahi”yə,*
*Beyin işlətmisən, ürək qoymusan.*

*"Tarzan"ı çevirib ana dilinə,*
*Körpə balalara hədiyyə etdin.*
*Yüksək səviyyəli oxuculardan,*
*Minnətdarlıq dolu sözlər eşitdin.*

*Hələ söz açmadım çox əsərindən,*
*Maşallah, ilhamın çağlar çeşmədir.*
*Bəzən də dönürsən müdrik ailmə,*
*İdrak ən dərin qatlara gedir.*

*Ana Kürə bağlı şair ömrünü,*
*Təmənna ummadan yaşayan şair.*
*Təbrizin, dərbəndin ağır yükünü,*
*Qəlbində, çiynində daşıyan şair.*

*Nə olar, yuxuda Xankəndi gəz ki,*
*Vətənə birləşmiş gör Qarabağı.*
*Gavurun, gədanın başını əz ki,*
*İşğaldan qurtarsın Vətən torpağı.*

*Görüşərik yetmişində, yüzündə,*
*Səksəni, doxsanı say, Tofiq Kərəm.*
*Əziz nəvələrin toyunda süz, de:*
*- Allah kərimdi, ay Tofiq Kərim.*

# ŞƏHİDLƏRİMİZİN BOYA-BAŞA ÇATDIĞI ÇATDIĞI SARVAN KƏNDİ BU GÜN




*Kəndimizin ala qapısı*




*Kəndimizin şadlıq evi*



*İ.Həsənov adına Sarvan kənd tam orta məktəbi*



*Elnur Səmədov adına Kənd Xəstəxanası*



*Kiçik ticarət mərkəzi*



*"Sarvan" Market*



*Sosialist Əməyi Qəhrəmanı Qüdrət Səmədovun büstü*



*Salman Əliyev adına klub*



*Bala Kür - Ağquşa çayı*




*Böyük Supermarket*



*Sarvan Şəhidlər Xiyabanı*



*Sarvan Şəhidlər Xiyabanın görünüşü*

# BÖYÜK VƏTƏN MÜHARİBƏSİ GÜNDƏLİYİ
***(27 sentyabr – 10 noyabr)***

**27 sentyabr 2020-ci il**

Səhər saat 6-da erməni hərbi birləşmələri Qarabağda cəbhə boyu istiqamətdə hücuma keçmişdi. Milli Ordumuz əks hücuma keçmiş, düşmənə cavab atəşi ilə layiqli cavab vermişdir. Gərgin döyüşlər nəticəsində Murov dağı və yüksəkliklər düşməndən azad olmuşdur. İlk gündə erməni faşistlərinin beli sınmışdır. Həmkəndlimiz gizir İbrahimov Zəmanət Gülhəsən oğlu şəhid olmuşdur. Fizuli rayonunun, Cəbrayıl rayonunun, Ağdərə rayonunun kəndləri və yüksəklikləri alındı.

**28 senytabr 2020-ci il**

Salyan rayon ictimaiyyəti Sarvan kəndində şəhid Zəmanət İbrahimlini saat 10 radələrində torpağa tapşırdı.

Başın sağ olsun, Vətən!

**29 sentyabr 2020-ci il**

Kəndimiz ikinci şəhidini də qarşıladı. MAXE işləyən Babayev Alməmməd Qərib oğlu axşam 21.00 radələrində torpağa tapşırıldı. Dəfn zamanı milli həmrəylik nümayiş olundu. “Şəhidlər ölməz, Vətən bölünməz” şüarı kəndi başına götürmüşdü. Bu gur səs bizi qələbəyə səsləyirdi. Bu, qələbə çoşqusu idi.

**30 sentyabr 2020-ci il**

Cəbhədə qəhrəmanlıqla döyüşən həmkəndlimiz zabit Abuşov Eltac Şəmsəddin oğlu yaralanmışdır. Hazırda Şirvan şəhərində xəstəxanada müalicə alır.

Düşmənin itkiləri çoxdur. Hərbi sursatla bərabər xeyli sayda düşmən məhv edilmişdir. Qeyd edim ki, S-300 raketi (3 ədəd) zərərsizləşdirilmişdir. Bir raketin qiyməti 150 milyon dollardır. 16 ədəd tank, 12 zenit raket qurğusu məhv edilmişdir.

Ağdərə istiqamətində düşmən ciddi itkilər verir.

Qarabağ Azərbaycandır!

**1 oktyabr 2020-ci il**

Ordumuz Füzuli, Cəbrayıl və Zəngilan istiqamətində irəliləyir. Düşmənə sarsıdıcı zərbələr vurulur. Qələbə bizimdir! 30 ilə yaxın Qarabağ münaqişəsini nizamlamaq istəyən ATƏT-in Minsk qrupu (ABŞ, Fransa, Rusiya) müharibəni dayandırmağı tövsiyə edir. Halbu ki, BMT-nin 4 qətnaməsinə əməl olunmur. Ali Baş Komandan İlham Əliyevin mövqeyi belədir:

Ermənistan ordusu silahlari yerə qoyub torpaqlarımızdan rədd olsun. Sonra danışıqlar başlaya bilər. Vətən müharibəsində haqq işimizi canı qəlbdən, sidq ürəkdən dəstəkləyən və bizə arxa olan qardaş Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayib Ərdoğana, Xarici İşlər Naziri Mövlud Çavuşoğluna və Müdafiə Naziri Hülsi Akara təşəkkür edirəm.

Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan kimi türkdilli ölkələrin bu savaşa biganə qalması təəccüb doğurur.

Qardaş Pakistan ölkəsi həmişə bizimlədir:

- Nə qədər ki, Ermənistan işğala son qoymayıb, biz Ermənistanı dövlət kimi tanımayacağıq.

Ermənistan Ordusu hətta döyüş bayrağını atıb qaçmışdır. Düşmənin atəş nöqtələri darmadağın edilir.

**2 oktyabr 2020-ci il**

Axşam Müdafiə Nazirliyinin mətbuat katibi brifinq keçirdi. Məlum oldu ki, düşmənin 300 tankı və zirehli hərbi sursatı zərərsizləşdirilib. Şanlı ordumuz düşmənə qan uddurur. Ağdərənin Madagiz yüksəklikləri Milli ordunun nəzarətinə keçmişdir. İndi həmin ərazi Suqovuşan adlanır.

**3 oktyabr 2020-ci il**

Bu gün Salyan Şəhər Mərkəzi Xəstəxanasında oldum. Vətən Müharibəsində döyüşlərdə yaralanan əsgər və zabitlərlə görüşdüm. Biləsuvarlı Elbrus Sarıbala oğlu Fizuli bölgəsində yaralanmışdır. Çox nikbin idi. Sağalıb yenidən döyüşə getmək istəyirdi. Düşmən Tərtər və Goranboyun dinc əhalisini atəşə tutur. Xeyli yaşayış evlərinə ziyan dəyib. Mülki əhali arasında ölənlər var. Düşmən yaşı 60-dan yuxarıları cəbhəyə göndərir. Tərtər, Cəbrayıl, Fizuli rayonlarının kəndləri işğaldan azad oldu.

**4 oktyabr 2020-ci il**

Axşam Ali Baş komandan Cəbrayıl rayonunun 5 kəndinin azad olunması xəbərini verdi. Suqovuşanı aldıqları üçün Prezident İlham Əliyev Birinci Korpusun komandanı general Hikmət Həsənovu təbrik etdi.

Cəbrayıl Dövlətzadə adlı şəhid iki düşmən polkovnikini öldürüb. Generalı isə əli ilə boğub. Daha 30 tank məhv edilib. Suqovuşana Azərbaycan bayrağı asıldı.

QARABAĞ AZƏRBAYCANDIR!

Düşmən saat 9.30-dan başlayaraq Ermənistan ərazisindən Gəncə şəhərini raket atəşinə tutmuşdur. Dağıntılar, ölənlər və yaralananlar var. Saat 15.00-da Cəbrayıl rayonunun xeyli kəndləri azad olundu.

**5 oktyabr 2020-ci il**

S-300 raketi ilə düşmən Xızı və Abşeron rayonlarını atəşə tutub. Düşmən həmçinin Beyləqanı, Ağcabədini, Ağdamı, Tərtəri, mülki əhalini atəşə tutub. Düşmənin 3 tankı vurulub. N.Paşinyan ABŞ Prezidenti Trampla danışıb kömək istəyib. Rusiya Federasiyasının Prezidenti Vladimir Putin Paşinyanın zənglərinə cavab verməyib. 30 ildən sonra Suqovuşandan Tərtər, Goranboy və Yexlax rayonlarına su verilib. Cəbrayıl rayonunun Şıxəli, Ağalı, Sarıcalı, Məzə kəndləri azad olunub.

**9 oktyabr 2020-ci il**

Baş leytnant İsmayılov Aslan Əvəz oğlu doğma Sarvanda torpağa tapşırıldı. Allah rəhmət eləsin!

Düşmən bütün cəbhəboyu itkilər verir. Xocavənd rayonunun Hadrut qəsəbəsi və Sur kəndi, eləcə də Cəbrayıl rayonunun bir çox kəndləri işğaldan azad olunub.

**10 oktyabr 2020-ci il**

Bu gün saat 12.00-da humanitar atəşkəs elan edildi. Bu, Moskvada 10 saatlıq danışıqlardan sonra əldə edilmişdir. Hər iki tərəf əsirlərin mübadiləsi və döyüş meydanlarından meyitlərin götürülməsinə razılıq verir.

**11 oktyabr 2020-ci il**

Atəşkəsə məhəl qoymayan ermənilər 14.30-da Gəncə şəhərini raket atəşinə tutublar. Raket 4 mərtəbəli binaya düşüb. 10 nəfər ölüb, 6 nəfər yaralanıb. Bu da erməni vəhşiliyinin bir nümunəsidir. Dinc əhaliyə atəş açmaq insanlığa yaraşmır.

**12 oktyabr 2020-ci il**

Fizulinin bir kəndi və bir neçə yüksəkliyi ələ keçirilib. Hadrutu geri almaq istəyən erməni diversiya qrupu məhv edilib.

Pakistan Prezidenti İmran Xan dedi:

- Canımızla, silahımızla qardaş Azərbaycanın yanındayıq. Ermənistanı xəritədən silərik.

**14 oktyabr 2020-ci il**

Ağoğlan (Hadrut qəsəbəsi) azad edilib. General Polad Həşimovu  şəhid edən erməni polkovniki gəbərdilib. Füzulinin Ərgünəş zirvəsinə Azərbaycan bayrağı asıldı. Bu gün 8 kənd azad olundu.

Haydı irəli, Azərbaycan əsgəri!

**15 oktyabr 2020-ci il**

Düşmənin bir general və bir polkovniki gəbərdilmişdir. Xocavənd, Füzuli, Cəbrayıl rayonlarıınını xeyli kəndləri azaddır..

**16 oktyabr 2020-ci il**

Düşmən Naxçıvan Muxtar Respublikasının Ordubad rayonuna raket atmışdır. Gəncədə yaralanan uşaqların şəkilləri

düşmənin mənfur erməni olduğunu bir daha sübut etdi. Həyasız, hiyləgər, şərəfsiz düşmən nəyə desən, əl atır.

**17 oktyabr 2020-ci il**

Füzuli şəhəri və 7 kənd işğaldan azad olundu. Axşam Gəncə yenə atəşə tutuldu. Bu Ballistik raketdir. Rusiya istehsalıdır. 18 ölü, 42 yaralı.

**18 oktyabr 2020-ci il**

Müstəqillik günümüz mübarək! Düşmən hərbi hissəni qoyub qaçıb. Bütün hərbi hissə bizdədir.

Axşam saat 00.00-dan humanitar atəşkəs elan olunub.

**19 oktyabr 2020-ci il**

Cəbrayılın 9 kəndi işğaldan azad olundu. Ermənilərə bütün cəbhə boyu sarsıdıcı zərbələr endirilib.

**20 oktyabr 2020-ci il**

Zəngilan rayonu işğaldan azad olundu.

Fizulu, Xocavənd, Cəbrayıl və Zəngilan rayonlarının 23 kəndi işğaldan azad olundu. Düşmənin 4 ədəd S-300 raketi məhv edilib. 241 tank (39 qənimət kimi ələ keçirilib) və xeyli canlı qüvvə məhv edlib.

**21 oktyabr 2020-ci il**

Qubadlı uğrunda ağır döyüşlər gedir. Zəngilan rayonu 29 oktyabrda işğal olunmuşdu. 20 oktyabrda işğaldan azad olundu. Zəngilan rayon Mincivan qəsəbəsində Azərbaycan bayrağı dalğalandı.

**22 oktyabr 2020-ci il**

Xarici işlər naziri Ceyhun Bayramov dünən Rusiyada Lavrov ilə danışıqlar apardı. Ermənilər Qubadlıda xeyli itki verdi. Yüksəkliklər ələ keçirildi. Ağdərə rayonundakı beton istehkam axır ki, darmadağın edildi. Eşq olsun Ordumuza! Cəbrayəl və Zəngilan rayonlarının xeyli kəndləri azaddır.

**23 oktyabr 20230-ci il**

Qubadlı istiqamətində düşmənə ciddi zərbələr vuruldu. Erməni deputatı döyüşdə məhv edildi.

Daha 13 kəndimiz işğaldan azad olundu.

**24 oktyabr 2020-ci il**

Qubadlı və Laçın istiqamətində qızğın döyüşlər gedir. Ermənistan ərazisindən Laçın və Qubadlıya atəş açılır. Önəmli yüksəkliklər ələ keçirildi.

Ermənistan müdafiə nazirliyi açıq-aşkar "bacara bilmirik" bəyanatı verdi.

Qubadlıda SU-25 təyyarəsi məhv edildi.

**25 oktyabr 2020-ci il**

Düşmənə Laçın dəhlizində sarsıdıcı zərbələr endirilir. Qubadlının 14 kəndi işğaldan azad olundu.

Rus ordusu Qubadlı, Qafan sərhədlərində hərbi düşərgələr qurur. Qubadlı işğaldan azad olundu!

**26 oktyabr 2020-ci il**

Ordumuz yüksək dəqiqlikli silah növü ilə düşmənə ölümcül zərbələr endirir. Eşq olsun Ordumuza!

Müzəffər Qələbəni döyüş meydanlarında əsgər və zabitlərimiz həyatları hesablarına əldə edirlər. Xilas olan yerlərə bayrağı da onlar asırlar.

**27 oktyabr 2020-ci il**

Eloğlum Ənvər İsmayılov səhər-səhər nəvəsi ilə (Aqil İxtiyar oğlu ilə) telefonda danışırdı. Birdən onun rəngi avazıdı; Nə danışırsan, ay bala? Yaxınlaşıb nə olduğunu soruşdum. Ay bala, məni qorxutdun ki... Belə de də... Sən demə, nəvəsi Aqil Hadruq qəsəbəsindəki erməni evində imiş. Babasına deyib ki, erməni evindəyik.

ABŞ prezidentinin təklifi ilə 3-cü dəfə atəşkəs elan edildi. Saat 8.00-dan 4 dəqiqə keçmiş Ağcabədini yenə atəşə tutdular.

Düşməndən əldə etdiklərimiz: 252 tank məhv edilib, 53 tank, 50 piyada maşını qənimət götürülüb.

**28 oktyabr 2020-ci il**

Humanitar atəşkəs olmasına baxmayaraq ermənilər Bərdə şəhərini raket atəşinə tutdu. Ölən və yaralananlar var.

8 yaşlı qızcığazın günahı nə idi axı? Lənət olsun erməni faşistlərinə!

Vətən müharibəsi başlanandan bibimnəvəsi döyüşlərdə iştirak edir. Füzuli, C.brayıl, Zəngilan və Qubadlının azad olunmasında yaxından iştirak edir. İndi isə Laçın və Şuça uğrunda döyüşlərdə iştirak edir.

**29 oktyabr 2020-ci il**

Bu gün qardaş Türkiyənin Cümhuriyyət bayramıdır. Bizə mərmi atana biz çiçək atarıq, amma məzarı üstünə (Alp Aslan Türkeş)

Bu gün 13.15-də Qubadlı səmasında ermənilərin 2 SU-25 təyyarəsi məhv edlib.

**30 oktyabr 2020-ci il**

Daha 9 kənd işğaldan azad olundu. Bərdə və Tərtərə atılan "SMERC" raket qurğularının 3-ü ordumuz tərəfindən məhv edildi. Qubadlı, Zəngilan və Cəbrayıl rayonunun kəndləri işğaldan azad olundu.

**31 oktyabr 2020-ci il**

Cenevrədə ATƏT Ermənistan və Azərbaycan xarici işlər nazirlərinin 5 saatlıq görüşü oldu. Heç bir razılaşma olmadı.

Haydı irəli, Azərbaycan əsgəri!

**1 noyabr 2020-ci il**

Türkiyə XİN-in naziri M.Çavuşoğlu Bakıya işgüzar səfərə gəlib. 16 km uzunluğunda yeraltı tunel düşməndən alındı. Hətta həmin tuneldə Tır maşınları da hərəkət edə bilir.

Erməni vandalları Şuşa meşələrini yandırır.

Tərtər və Ağcabədi yenə atəş altındadır, yenə dinc əhaliyə düşmən divan tututr.

**2 noyabr 2020-ci il**

Rusiya KİV-ləri xəbər veriri ki, Azərbaycan Ordusu Şuşa şəhərində daxil olub. Təki düz olsun. Düşmənin SU-25 təyyarəsi vuruldu.

Bu gün 8 kənd işğaldan azad olundu.

Qələbə bizimdir!

**3 noyabr 2020-ci il**

Ağdam və Lerik rayonlarından olan 2 əkiz qardaş şəhid oldu. Mən "Türkün atını kəsənin dəvəsini kəsərəm" (Hulisi Akar Türkiyə Müdafiə Naziri)

"Sən qorxaqsan, qulsan, çünki sən ermənisən" (A.Puşkin)

**4 noyabr 2020-ci il**

Şuşa uğrunda şiddətli döyüşlər gedir. Daşaltı kəndi işğaldan azad olundu. Cəbrayıl, Zəngilan, Qubadlının bir çox kəndləri artıq azaddır.

**5 noyabr 2020-ci il**

Xankəndi 70 faiz boşaldılıb. Laçın-Şuşa yolu mülki əhali üçün bağlanıb. 2 həmkəndlimiz döyüşdə yaralanıb. Aqil İxtiyar oğlu və Fərrux Yusuf oğlu döyüşdə yaralanmışdır. Hal-hazırda Hospitaldadırlar. Allah şəfa versin!

**7 noyabr 2020-ci il**

Şanlı müzəffər ordumuz 16 kəndi azad etdi. Eşq olsun!

**8 noyabr 2020-ci il**

Tarixi Şuşa şəhərimiz işğaldan azad olundu. "Atamın vəsiyyətini yerinə yetirdim" – İlham Əliyev

**9 noyabr 2020-ci il**

Daha 23 kəndimiz işğaldan azad olundu.

Dövlət bayrağı günümüzdür.

Daha 45 kənd işğaldan azad oldu.

**10 noyabr 2020-ci il**

Qələbə! Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Komutan!

3 ölkə Rusiya, Azərbaycan və Ermənistan rəhbərləri (V. Putin, İ.Əliyev cə N.Paşinyan) bəyanat imzaladılar. Bəyanat 9 bənddən ibarətfir. (Kəlbəcər, Ağdam, Laçın dekabrın 1-dək Azərbaycana verilməlidir).

**1 dekabr 2020-ci il**

Bəyanata əsasən Ermənistan əhalisi Laçından çıxıblar.

**6 dekabr  2020-ci il**

Bu gün kəndimiz Qazi Mirzəyev Raul Füzuli oğlunu qarşılayır.

**8 noyabr 2020-ci il**

Sarvan kəndimiz 3-cü Qazisini də qarşıladı. Həziyev Rəşid Natiq oğlu.

**VƏTƏN MÜHARIBƏSI ILƏ ƏLAQƏDAR FAKTLAR VƏ RƏQƏMLƏR**

Birinci Qarabağ Müharibəsi (1991-1994) 11.557 şəhid
Aprel döyüşləri (2-6 aprel, 2016) 92 şədid
Tovuz döyüşü (12-14 iyul, 2020) 12 şəhid
Zəfər Müharibəsi (27 senytabr, 10 noyabr 2020) 2889 şəhid
Ümumi: 15.320 şəhid
İtkin: 24 hərbçi

**Cənub zonasında rayonlar üzrə şəhidlərin sayı**
Cəlilabad – 135 şəhid
Biləsuvar – 90 şəhid
Astara – 80 şəhid
Masallı – 56 şəhid
Lerik – 50 şəhid
Lerik 50 şəhid
Yardımlı 40 şəhid
Cəmi – 520 şəhid

**Ermənilərin itirdikləri:**
Ölü - 8.472
Yaralı – 13.000
Əsir – 502
İtkin – 3.000

Vətən Müharibəsində Azərbaycanın 2889 nəfər hərbi qulluqçusu şəhid olub.

Azərbaycanın 24 hərbçisi itkin düşüb.

1245 nəfərin isə müalicəsi davam edir.

103 nəfər şəhidimizin DNT analizi aparılır.

**Birinci Qarabağ Müharibəsi zamanı**
800-dən çox Azərbaycan kəndi dağılıb və qarət olunub
20 mindən çox insane həyatını itirib, 50 min nəfərdən

çox yaralanıb və əlil olub.

Bu müharibə ərazimizin 20 faizi qədəri işğal edilib. İşğal ərazisi 12 min kv.km-i ötüb.

**Erməni faşistlərinini vaxtı ilə işğal olan rayonlarımıza qoyduğu adlar**

1. Berdzor yox! – Laçın
2. Şuşi yox! – Şuşa
3. Karvacar yox! – Kəlbəcər!
4. İvanyan yox! – Xocalı!
5. Martuni yox! – Xocavənd!
6. Mardakert yox! – Ağdərə!
7. Akna yox! – Ağdam!
8. İrakan yox! – Cəbrayıl!
9. Varanda yox! – Füzuli!
10. Sanasar yox! – Qubadlı!
11. Kovsakan yox! – Zəngilan!
12. Stepanakert yox! – Xankəndi!

2889 şəhidin arasında zərif cinsin yeganə nümayəndəsi Arəstə Baxışovadır. O, Qubadlı uğrunda döyüşlərdə həlak olub. 24 oktyabrda yaralılarımıza tibbi müdaxilə zamanı şəhid oldu. 2 övladı var.

Vətən Müharibəsində həlak olan 94 mülki şəxsə Şəhid status verilmişdir

**Ermənistan ordusunun məhv edilmiş texnikaları**

"OSA" ZRK – 40
"KUB" ZRK – 4
"KRUQ" ZRK – 1
Zastava – 14
"S-125" ZRK – 2

Pilotsuz uçuş aparatları – 22
“Elbrus” əməliyyat-taktiki RK – 2
Ballistik raket -1
“Toçka - U” RK – 1
Radioelektron mübarizə vasitələri – 5
“R-142” komanda qərargah maçını – 2
“Nebo - M” radiolokasiya stansiyasl – 1
Müxtəlif radiolakasiya stansiyası -7
Tank əleyhinə vasitələri – 53
“Smerç” – 4
“Qrad” – 97
“Uraqan” – 2
TOS adsaçon – 1
“S-300” ZRK – 7
Atıcı qurğu – 7
“S-300” aşkaretmə stansiya – 2
“Obarona” radiolokasiya stansiyası – 1
“TOR” ZRK – 5

**Vətən Müharibəsində itirdiyimiz hərbçilərimiz**
3 polkovnik
23 polkovnik-leytenant
49 mayor
54 kapitan
103 Baş leytenant
147 leytenant
5 kiçik leytenant
267 gizir
696 MAXE
1241 - əsgər

## Qarabağda yerləşən rayonların inzibati bölgüsü

1. Kəlbəcər (1 şəhər, 145 kənd, 1 qəsəbə - İstisu)
2. Laçın (1 şəhər, 125 kənd, 1 qəsəbə - Qayğı)
3. Ağdam (1 şəhər, 123 kənd, 1 qəsəbə - Quzanlı)
4. Qubadlı (1 şəhər, 93 kənd)
5. Cəbrayıl (1 şəhər, 92 kənd, 4 qəsəbə)
6. Xocavənd (1 şəhər, 81 kənd, 2 qəsəbə)
7. Zəngilan (1 şəhər, 79 kənd, 5 qəsəbə - Minicivan)
8. Fizuli (2 şəhər, 82 kənd, 16 qəsəbə)
9. Ağdərə (1 şəhər, 57 kənd, 3 qəsəbə) 1992-ci il 13 oktyabrda Milli Məclisin qərarıyla rayon statusu ləğv olunub, bir hissəsi Tərtərə, bir hissəsi Ağdama, qərb isə Kəlbəcərə verilib.
10. Xocalı (1 şəhər, 50 kənd, 1 qəsəbə)
11. Şuşa (1 şəhər, 17 məhəllə, 1 qəsəbə, 37 kənd)
12. Xankəndi (1 şəhər, 1 qəsəbə - Kərkicahan)
13. Tərtər (2 şəhər, 1 qəsəbə, 74 kənd)

Əziz tələsənlər, Şuşanın, Laçının və sair rayonlarımızın tez bir zamanda azad olunmasını damarlarında türk qanı axan hər bir kəs istəyir. Başa düşək, metro ilə “Gənclik”dən “28 May”a getmirik. Qarabağ Azərbaycandır!

## Unutmayaq

Dağlıq Qarabağ işğal tarixi – 1988-1993-cü illər

Ərazisi 4400km2 (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut)

Xocalı rayonu: İşğal tarixi – 26 fevral 1992-ci il, ərazisi 970 km2. əhalisi 11.567

Şuşa şəhəri: işğal tarixi – 8 may 1992-ci il, ərazisi – 289 km2, əhalisi 24.900

Laçın rayonu: işğal tarixi – 18 may 1992-ci il, ərazisi – 1875 km2, əhalisi – 60.000

Xocavənd rayonu: işğal tarixi – 2 oktyabr 1992-ci il, ərazisi – 1458 km2, əhalisi – 9.011

Kəlbəcər rayonu: işğal tarixi – 2 aprel 1993-cü il, ərazisi – 1936 km2, əhalisi – 55.000

Ağdam rayonu: işğal tarixi – 23 iyul 1993-cü il, ərazisi – 1154 km2, əhalisi – 158.000

Cəbrayıl rayonu: işğal tarixi – 23 avqust 1993, ərazisi – 1050km2, əhalisi – 52.049

Fizuli rayonu: işğal tarixi – 23 avqust 1993, ərazisi – 1112km2, əhalisi – 95.940

Qubadlı rayonu: işğal tarixi – 31 avqust 1993, ərazisi – 802 km2, əhalisi – 33.800

Zəngilan rayonu: işğal tarixi – 30 oktyabr 1993, azad olunması – 20 oktyabr 2020-ci il.

# SƏFƏRBƏRLİKLƏ ƏLAQƏDAR VƏTƏN MÜHARİBƏSİNDƏ İŞTİRAK EDƏN SARVAN İGİDLƏRİMİZ

1. Hüseynov Hüseyn Etibar oğlu
2. Fərrux Yusif oğlu – Qazi
3. Qəfərov Əkbər Qabil oğlu
4. Səfərov Əmən Rüfət oğlu
5. Nəzərov Elbrus Əsəd oğlu
6. Həsənzadə Hikmət Həsən oğlu
7. Kazımov Samir Nəcəf oğlu
8. İbişov Aqil İxtiyar oğlu – Qazi
9. Əliyev Murad Natiq oğlu
10. Sənani İbrahim Teymur oğlu
11. Həsənov Elvin İlham oğlu
12 Əkbərov Əssan Abdul oğlu
13. Mirzəyev Rahil Fizuli oğlu – Qazi
14. Səmədov Emin Vüqar oğlu
15. Bəşirov Cavidan İlham oğlu – Qazi
16. Əliyev Əlisa İsa oğlu
17. Həsənli Orxan Rafət oğlu
18. Nəbizadə Fərid Sahil oğlu
19. Abuşov Eltac Şəmsəddin oğlu – Qazi
20. Əzizov Sahil Səfər oğlu
21. Həsənov Murad İbrahim oğlu
22. Orucov Emil Elman oğlu
23. Məmmədov Kamran Vidadi oğlu
24. Bəşirov Sərraf Elxan oğlu

25. Məmmədov Orxan Əli oğlu
26 Səfərov Fəqan İlqar oğlu – Qazi
27. Səmdov Araz Ceyhun oğlu
28. İsmayılov Aslan Əvəz oğlu – şəhid
29. Babayev Alməmməd Qərib oğlu – şəhid
30. İbrahimov Zəmanət Gülhəsən oğlu – şəhid
31. Əzizli Tacəddin Şahəddin oğlu- şəhid
32.  İsmayılov Cavad Asif oğlu – şəhid

# DAĞLIQ QARABAĞIN ERMƏNİLƏŞDİRİLMƏSİ TARİXİ FAKTLAR

Qarabağın azad olunması yolunda çoxlu sayda şəhid verdik. İstər Birinci Qarabağ savaşında, istərsə də Vətən Müharibəsində düşmənə qarşı silahlı qüvvələrimiz qəhrəmancasına döyüşdü. Cənubi Qafqazda ermənilərin heç vaxt dövləti olmamışdır. Bu ərəb xilafəti dağılandan sonra da dirçələn dövlətlər arasında ermənilər olmamışdır. Gəlin tarixi faktlara nəzər yetirək:

Bu fikir (həm də akademik S.T.Yeremyanın gəldiyi nəticə!) bir daha təsdiq edir ki, Qarabağın bu hissəsində yaşayan əhali əvvəldən erməni olmamış, əksinə yerli Azərbaycan-alban tayfaları olmuşdur və sonradan erməniləşdirilmiş təşəkkül tapan Xaçın knyazlığı İ.A.Orbelinin sözləri ilə desək "qədim Albaniyanın bir hissəsi" idi. Cənubi Qafqazda ermənilərin ümumiyyətlə, dövlətçilik tarixinə malik olmadıqlarını sübut edir. Keçmiş Almaniya ərazisində yaranmış  Xaçın knyazlığı Mehranilər nəslinə mənsub olan Həsən Cəlalın dövründə (1215-1261) yüksək inkişaf mərhələsinə çatmışdı.

Onun zamanında Alban memarlığının ən mühüm incilərindən biri olan Gəncəbasar monastrı tikildi.

XIII-XIV əsrlərdə də Qarabağ Azərbaycan torpağı idi və onun əhalisi də, əsasən Azərbaycan türklərindən ibarət idi. XV əsrdə Qarabağ Azərbaycan Qaraqoyunlu (1410-1467) və Ağqoyunlu (1468-1501) dövlətlərinin tərkibində idi.

XIV əsrdə keçmiş alban hakimi Həsən Cəlalın nəsli (Cəlalilər) Qaraqoyunlu Cahan şahdan "Məlik" titulu aldı. Sonralar Cəlalilər nəslinin mülki 5 alban feodal knyazlıqları – məlikliklərinə (Gülüstan, Cəraberd, Xaçın, Vərəndə, Dizaq)

parçalandı.

Azərbaycan Səfəvi dövlətinin yaranması ilə (1501) bütün Azərbaycan torpaqlarının mərkəzləşdirilməsinə başlandı.

Bununla Azərbaycan Səfəvi dövləti regionun 2 ən qüdrətli dövlətlərindən birinə çevrildi.

Səfəvilər Azərbaycanda 4 bəylərbəylik yaradır ki, onlardan biri də Qarabağ və ya Gəncə bəylərbəyliyi idi.

1593-cü ilin məlumatına görə Gəncə-Qarabağ əyaləti 7 sancaq 36 nahiyəyə bölünürdü.

Səfəvi dövlətiinin zəifləməsindən sona Azərbaycan torpaqları İran, Rusiya və Osmanlı dövlətləri arasında müharibələr meydanına çevrildi.

Hesablamalara görə 1727-ci ildə Gəncə-Qarabağ əyalətinin əhalisi 122 min nəfər idi. Onun 893 min nəfərini (66 faiz) azərbaycanlılar, 37,8 min nəfərini (31 faiz) ermənilər (daha doğrusu qriqorianlaşmış və erməniləşmiş albanlar), 3,7 min nəfərini (3,1) kürtdlər təşkil etmişdir.

Səfəvi hökmdarı III Abbası yıxaraq hakimiyyətə gələn Nadir Şah Əfşar (1736-1747) onu qanuni hökmdar kimi tanımaqdan imtina edən Gəncə-Qarabağ bəylərbəyliyinin türk-müsəlman əhalisinə qarşı ağır cəza tədbirləri həyata keçirdi ki, bu amil də Qarabağın qriqorianlaşmış alban məliklərinin mövqeyini gücləndirdi və onların separatizminə təkan verdi.

Keçmiş Gəncə-Qarabağ əyalətlərinin ərazisində 2 Azərbaycan Xanlığı Gəncə-Qarabağ xanlıqları yarandı. Onların da əhalisinin böyük əksəriyyəti müsəlman azərbaycanlılardan ibarət idi. Bu nisbət sonrakı dövrlərdə İran və Osmanlıdan köçürülən ermənilərin xeyrinə dəyişməyə başladı.

## ŞAHƏNŞAH

*Şah İsmayıl Xətainin məzarı önündə düşüncələr*

***Firdovsi Sarvanlı***

*Dövlət daxilində sərhəd,*
*Dəhşətdi, vallahi, dəhşət.*
*Bir xalqı zülümlə*
*Bir-birindən ayıran,*
*Zorla əti dırnaqdan,*
*Gözü qaşdan ayıran,*
*Canı candan ayıran,*
*Min lənət olsun,*
*Rus-fars ittifaqına!*
*Susayıblar elə bil,*
*Türkün qızıl qanına.*
*Doğma torpağıma*
*Azad keçə bilmirəm,*
*Bu dərdi ürəyimdə*
*Necə daşıyım?*
*Necə? Bilmirəm.*
*Azərbaycandan,*
*Cənubi Azərbaycana*
*Biləsuvardan, Biləsuvara*
*Muğanımdan, Muğanıma*
*Nə keçid məntəqəsi?!*
*Gülür farsın əsgəri*
*Sərhəd keşikçisi*
*Şaqraqdı qəhqəhəsi.*

*Otuz milyon candaşım,*
*Doğma əziz qaradaşım,*
*Azadlığın peşində!*
*Zaman gələr görərik*
*Farsın iyli leşin də!*
*Hanı, dünyanın,*
*BMT-nın haqqı bəs?*
*Bütövləşək deyəndə:*
*kəs səsini,*
*Dinmə, kəs!*
*Xiyabani, Səttarxan*

*Bil, yenidən doğulacaq!*
*Pişəvəri dövləti lap*
*Yaxında qurulacaq!*
*Kəsilməyir məşrutənin*
*"Traktor"un əzəmətli*
*Gur səsi.*
*Bu, haykırtı, çağırış,*
*Azadlıq, istiqlal təntənəsi!*
*Açın qulaqlarınızı*
*Azərbaycan bir olacaq!*
*Tarixin səhifəsində*
*Yaşayacaq, qalacaq!*
*Siyasi xəritəmiz*
*Yenilənib, dəyişəcək.*
*O tay, bu tay birləşib*
*Qardaş, bacı görüşəcək!*
*Vahid Azərbaycanım,*

*Şərəfim, şöhrətim,*
*Şanım*
*Cahan türkün olacaq.*

*Sərhədləri aç, görək!*
*Türk imperiyası da*
*Turanda qurulsun gərək!*
*Ey şah babam!*
*Şah babam,*
*Şah damarım,*
*Ürəyim.*
*Torpağım,*
*Vətənim, duzum,*
*Çörəyim.*
*Hüzurunda əsgərin tək*
*Dayanmışam.*
*Odlanıram, alovluyam,*
*İçin-için yanıram.*
*Xəbərin varmı, babam,*
*Nələr gəlib başımıza?*
*Səfəvini məhv eləyib,*
*Zəhər atıb aşımıza.*
*Sultan Səlim,*
*Şah İsmayıl!*
*İki cahan sərkərdəsi!*
*Sultan Səlim Osmanlının,*
*Şah İsmayıl,*
*Şah Səfiəddin səcərəsi,*
*Ər nəvəsi!*

*Kimdi qalib?*
*Kimdi məğlub, bu döyüşdə?*
*Türk, türkün düşmənimi?*
*Qalib daim döyüşdə!*
*Sonuc nədir?*
*Heç fərqinə vardınız?*
*Türk yurduna paz vurub*
*Kötük kimi yardınız.*
*Dövlət dilin qorumadıq*
*Zaman-zaman,*
*Torpaqları pay vermişik,*
*Vuruşmadan, utanmadan.*

*Hanı bəs, gözdən*
*İraq İraqımız?*
*Sönüb bu gün*
*Kərküklərdə Ocağımız, çırağımız.*
*Ey, Şah babam, əlim Çatmır Ərzuruma.*
*Bir zamanlar qan uddurdun*
*Həm yunana, həm də ruma.*
*Yoxdu bu gün İki milyon kilometrlik*
*Böyük torpaq?!*
*Cılızlaşdı "qızılbaşlar*
*Aciz, əfəl, hamısı qorxaq!*
*Sən bilsən ki,*
*Səfəvini Məmləkəti,*
*Dilim-dilim parçaladı,*
*Düşmənimiz,*
*Xain əllə məhv edilib*

*Neçə-neçə igidimiz,*
*Sərkərdəmiz.*
*Şahənşahım, doğma İki qardaş*
*Torpağında hiylə ilə bənd Vurdular,*
*Ermənini millət edib*
*Türkə tələ qurdular.*
*Qafqazlarda at oynadır*
*Cılız millət, nökərimiz ermənilər.*
*İrəvanı, Zəngəzuru, Göyçə Gölün*
*Sevan edib Verməd ilər.*
*Şahənşahım, Azərbaycan*
*Dörd cəhətin hər yerində*
*Həm Şimali, həm cənubi,*
*Həm qərbi, Şərqi - cənnətməkan.*
*Bəs, soruşan varmı*
*Görən, niyə Güney,*
*Quzeyliyik?*
*Parçalanmış məmləkətçün Kədərliyik,*
*Gileyliyik?*
*Nədən, görən düşmənimiz*
*Çoxdu, babam?*
*Türkü sevən, əzizləyən*
*Bu dünyada yoxdu, babam?*
*Taladılar, yer altında*
*Yer üstündə hər nə varsa,*
*Apardılar Uzaqlara*
*Öz əlimizlə pay veririk*
*Qəsbkara, muzdurlara "yazıqlara.*
*Amerikan, ingilis, rus, ermәni...*

*Bunlar ta doğuşdan*
*Türkün qatı Düşməni!*
*Niyə bizim yaddaşımız korşalıbdır?*
*İri ala gözlərimiz görmür Yeri*
*Korlaşıbdır?*
*Niyə yatdıq, torpağımız*
*Dilim-dilim*
*Paylananda?*
*Üzə durur düşmənimiz*
*Naz eyləyir*
*Pay alan da.*
*Unuduruq.*
*Unutqanıq.*
*Keçmişləri, tarixmizi*
*Öyrənmirik?*
*Beynəlmiləl, humanistik,*
*Tolerantıq...*
*Bu sözlərdən, iyrənmirik.*
*Millətləri saxlayırıq, qoruyuruq*
*Gözümüz tək.*
*Sönən ocaq yandırırıq,*
*Od oğlu tək,*
*Közümüz tək.*
*Şahənşahım, niyə belə*
*Sadəlövhük?*
*Öz-özmüzü zay eyləyən, bəyənməyən*
*Ərköyünük?*
*İnanırıq hər bir sözə:*
*"həqiqətə", "ədalətə"*

*Ağ yalana!*
*İnanırıq, dünən bizi*
*Xəlvət çalan boz ilana.*
*Ey Şah babam, sən bilsən ki...*
*Didərgindi Azərbaycan övladları*
*Türklərimiz.*
*Bağışladıq Qarabağı*
*Tərpənmədi, təpərimiz,*
*Tüklərimiz.*
*Qarabağda yurd salıbdır*
*Rus-fars çörəyini, iştah ilə*
*Gəmirənlər!*

*ABŞ, ATƏT,*
*Avropaya "ədalətə" güvənənlər.*
*Arxasında rus dayanıb*
*Xristiyan törəməsi.*
*Xankəndində eşidilmir, nə vaxtdandı*
*"Qarabağın şikəstəsi".*
*Şahənşahım, hüzurunda Utanıram.*
*Sən, bağışla bəndələri...*
*"Mən", "mən" deyən sapı bizdən olan*
*Baltaları, rəndələri.*
*Şahənşahım, elə bil ki,*
*Bütövləşmək dərsini*
*Bizə keçməyiblər.*
*Bir olmağın şirin-şəkər*
*Şərbətini ömür boyu İçməyiblər.*
*Əsrlərdi türkləşirik:*

*Turan olduq.*
*Hanı birlik?*
*Oğuz türkü olmamızı*
*İsbatlaya bilməyirik!*
*Bilməliyik: türkün dostu*
*Türk olubdur ta Qədimdən,*
*Qürur duydum, içimdəki*
*Öz səsimdən.*
*Çaldıranda, Şahənşahı,*
*Məğlub edən türk*
*Deyilmi?*
*Sultan Səlim Osmanlıdır*
*Türk oğlu, türk Deyilmi?*
*Türk qanından, türkün*
*Gözü doymadımı?*
*İki türkü, şər ingilis*
*Üzbəüzə qoymadımı?*
*Şahənşahım, düşmənimiz*
*Torpaq alıb, lovğalanır,*
*Harındılar,*
*Yad çörəyi yeyə-yeyə,*
*Zırpılaşıb, yekə, iri*
*Qarındılar.*
*Sərhədimiz hey daralır*
*Gəlib çatıb Xan Araza.*
*Torpaqları xəndək etdik, səngər etdik*
*Qaza-qaza.*
*Əlim çatmır*
*Nə Təbrizə, nə Mərəndə, nə Dərbəndə,*

*Nə Xoya da.*
*Həsrət qaldıq deyək, gülək*
*O taya da, bu taya da.*

*Hanı Təbriz, Şirvan,*
*Gəncə Çuxursəd bəylərbəyliyi?*
*Tək adları qalıb, Şahım,*
*Ağıl qəbul eyləməyir*
*Cahilliyi, sərsəmliyi.*
*Kimə deyək, inandıraq*
*Qəndəhar, Herat,*
*Kars Səfəvi torpağıdır?*
*İrəvan, Borçalı, Dərbənd*
*Ərdəbil, Kərkük, yalnız*
*Göz dağıdır.*
*Bu nə gündü, düşmüşük biz?*
*Bəlkə budur qismətimiz?*
*Hanı Qızılbaş dövlətimiz,*
*Qürurumuz,*
*Şərəfimiz,*
*Qüdrətimiz?*
*Əqli, hissi, huşu olmayanın*
*Əlindədir sərvətimiz,*
*Dövlətimiz.*
*Zülüm çəkir millətimiz*
*Əl yazımız, xalçamız da*
*İngilisin muzeyində?!*
*Heyrətə bax!*
*Xəzinəni təhvil verən,*

*Nişan verən, milli ruha Qeyrətə bax.*
*Yurdum talan oldu, gəl,*
*Sinəm qəmlə doldu, gəl,*
*Anam, bacım girovdur*
*Dörd tərəfi yoldu, gəl.*
*Hey bayatı, şikəstə söyləyirik*
*Ağ atlı oğlanımı gözləyirik?*
*Torpağımız, qeyrətimiz tapdaqda*
*Şahənşahım, biz niyə ölməyirik?*
*Harda qaldı,*
*Babəkimin qeyrəti?*
*Vətən üçün, şirin candan keçənlər?*
*Neçə ərən içdi ölüm şərbəti*
*Düşmənləri yalın əllə biçənlər.*
*Şahənşahım, dərdim yaman çoxalıb*
*Hamı deyir:*
*-Ayılın siz, durun siz.*
*Nə çox yatdız yadelli kölgəsində?*
*Yuxularda, düşmənləri*
*Qırın siz.*
*Sual çoxdu, cavabın*
*Kim söyləyəcək?*
*Nə çətinmiş ayılmaq*
*Bizi kim silkələyəcək?*
*Bütöv Azərbaycan qurub*

*Deyək ki, biz ayıldıq,*
*Varmı sərkərdəmiz,*
*Bizi qalib edəcək?!*

*Biz oğuz türkləriyik*
*Turan eli Vətənimiz.*
*Qızılbaş olmalıdır, döyüşən mərd*
*Əsgərimiz.*
*Həm şiəsi, sünnisi*
*Birləşib bir olmalı*
*Dağ çayları tək axıb*
*Bir nəhrə dolmalı*
*Azadlıq verilməyir*
*Alınır bilməliyik*
*Üzü Təbriz tərəfə*
*Araz keçib, ölməliyik.*
*Hər birimiz mərd qazi!*
*Şəhid olub*
*Azad torpağımızda*
*Dən kimi*
*Bitməliyik.*
*Otuz səkkiz yaşında*
*Dünyadan köç edənim,*
*Mərd kimi, igid təki*
*Ömür sürüb gedənim.*
*Səfəvi dövlətində*
*Azərbaycan dilini*
*Dövlət dili edənim.*
*Yetmiş iki əmirdən*
*Altmışı*
*Azərbaycan türkü idi.*
*Avropada xain, xəbis düşmənimiz*
*Qorxudaydı, hürküdəydi.*

*"Xətai" təxəllüsü ilə*
*Şeir yazan ozanım*
*"Dəhnamə" əsəriylə ad-san*
*Şərəf, qazananım.*
*Ərdəbilə Şəkidən*
*Qayıdanda*
*Həyata göz yumanım.*
*Gül-çiçək fəslində*
*Kəhkəşanda qalanım.*
*Doğulacaq çox yəqin*
*Qurd oğlu, qurd Nəsillər*
*Dəyişəcək sərhədlər,*
*Dəyişəcək tarixlər...*
*Bax, o zaman, ruhunu*
*Şad eylərik*
*Onu abad eylərik.*
*Şahənşahım, cahan*
*Türkün olacaq.*

*İslam bayrağı altda*
*Türklər zəfər çalacaq.*
*Unutmuruq tarixi!*
*Türk oğlu türklərik biz*
*Bütöv Azərbaycanı*
*İnamla bəklərik biz!*
***Ərdəbil-Salyan***

**2013-2014**

## "Hər bir şəhid Vətəndir" kitabına sözardı

Firdovsi Sarvanlı haqqında yazmaq mənim üçün həm çətin, həm məsuliyyətli, həm asandır. Kəndimizin vətənpərvər ziyalısı Firdovsi Sarvanlı orta məktəbdə müəllimimiz olub, müəllim haqqında şagirdin danışması həmişə çətin və məsuliyyətli olub. Asandır ona görə ki, Firdovsi Sarvanlı mənim yaxın qohumumdur, özümü dərk edəndən onun bütün həyat və yaradıcılığının şahidiyəm.

Eşidəndə ki, Firdovsi Sarvanlı 44 günlük Vətən Müharibəsi Şəhidlərinin xatirəsini əbədiləşdirmək, ümumi Sarvan kəndimizin bütün şəhidləri haqqında kitab yazmaq istəyir, müəllimin bu fikrini alqışladım, qürurdan qəhərləndim. Kitab tarixdir, kitab qalıcıdır. Sarvanda nəsillər dəyişdikcə bu kitabı oxuyacaq, həyatları yarıda qırılmış igidlərimizin, müqəddəs yolun yolçularının həyat tarixçəsi, xatirəsi hər bir sarvanlı üçün əziz tutulacaqdır. İnşallah, kəndimizin xeyirxah insanları sayəsində kitabın ikinci dəfə nəşrə gedəcəyinə, hər bir sarvanlının evində bu kitabdan olacağına əminəm. Bizim kəndin insanları mərd insanlardır, mən bunu ağır xəstələrə, evləri yananlara edilən yardımlarda, kəndin yumruq kimi birləşməsində görmüşəm, kəndimizlə fəxr etmişəm.

Orta məktəbdə vətənpərvərliyi Firdovsi müəllimdən öyrənmişik biz. Bu da təsadüfi deyil, çünki o, Böyük Vətən Müharibəsində qəhrəmanlıqlar göstərmiş, şəxsən Fransa Prezidentindən mükafat almış Qasım lələnin oğludur. Ruhu

şad olsun Qasım Lələmizin!

"Hər bir şəhid Vətəndir" kitabında şəhidlərimizin qəhrəmanlıq dastanları ilə bir daha tanış oluruq. Firdovsi müəllimin 44 günlük Müharibəni əhatə edən gündəliyini oxuduqca, bir daha o günlərə qayıdır, o həyacanları yaşayırıq. Kitabda yer almış "Şahənşah" poeması əziz müəllimimizin necə vətənpərvər, necə yurdsevər olmasına, tarixi gözəl bilməsinə, ürəyi o taylı-bu taylı Azərbaycan üçün necə yanmasına möhürünü vurub. Həyacansız oxumaq olmur.

Yazmaq fürsəti varkən, Firdovsi müəllimə kəndimizin igid oğullarının adını kitabında yaşatdığı üçün, o kitabı yazarkən özündə güc tapıb hər şəhid ailsəninin yanında olduğu üçün, onların xatirələrini dinlədiyi üçün, Mərdan müəllimə də Firdovsi müəllimə maddi və mənəvi dəstək olduğu üçün təşəkkür edirəm! Övladlarını vətənsevər böyüdən, Vətən uğrunda şəhid verən hər bir şəhid ailəsinə ehtiramımı bildirirəm.

Şəhidlər ölməz, Vətən bölünməz!

***Elnurə Abuşova***

## Torpağa bağlı insan



Sizə gənc iş adamı, kəndimizin sayılıb-seçilən insanlarından biri olan “Hər bir şəhid Vətəndir” kitabına sponsorluq edən Cəlilov Mərdan Xudaqulu oğlu haqqında danışmaq istəyirəm. O, məsul vəzifədə çalışır. Respublikanın kənd təsərrüfatında pambıqçılığın inkişafında iştirak edir. Mərdan müəllim P-Aqro (AQRO) MMC-nin Salyan filialının direktorudur. İşgüzar, təşkilatçı adamdır. Torpağa bağlı zəhmət adamıdır. Prezident cənab İlham Əliyevin fərmanı ilə pambıqçılığın və taxılçılığın inkişafında göstərdiyi xidmətlərinə görə II dərəcəli Əmək Ordeni ilə təltif olunmuşdur. Ötən il başçılıq etdiyi kollektiv Respublikada hər hektardan yüksək məhsuldarlıq əldə etmişdir.

Mərdan Cəlilov gözəl ailə başçısıdır. Ömür-gün yoldaşı Afaq xanımla 4 övlad böyüdüb tərbiyə etmişdir. Qızları Aysu, Zəhra, Gülsura ali təhsilli mütəxəssislərdir. Oğlu Müslüm isə bu il qəbul imtahanı verəcək.

Əziz Mərdan müəllim, sizə ürəkdən təşəkkür edirəm ki, kitabın nəşri üçün maddi və mənəvi dəstəyinizi əsirgəmədiniz.

Allah Sizi qorusun! Hər zaman xalqın, elin sevimlisi kimi yaşayın.

## MÜNDƏRİCAT


"Şəhidlik - Tanrıya yaxın olan ən uca məqamdır..." ........ 3
MÜƏLLİFDƏN.. . ........ 5
Adın tarixim oldu ........ 7
SARVAN ŞƏHİDLƏRİ ONLARI SİZ DƏ TANIYI N ........ 8
ŞƏHİDLƏRİN QIŞ NAĞI LI ........ 8
ZÜMRÜD FƏRZİ OĞLU MEHDİYEV ........ 8
ABUŞOV HƏSRƏDDİN ABIŞ OĞLU ........ 9
ZİRVƏLƏRDƏN BAXAN ŞƏHİD ........ 12
SON MƏZAR, ATA YURDU ........ 15
ZƏNGƏZURDA ŞƏHİD OLDU ........ 19
ATA DA ŞƏHİDDİ, OĞUL DA ........ 22
ŞUŞANIN DAĞLARI BAŞI DUMANLI ........ 24
TORPAĞI SAHİBSİZ QALAN ŞƏHİD ........ 28
MƏZARSIZ ŞƏHİD ........ 32
ELÇİN - YANAN ÜRƏK ........ 34
ELBRUS ZİRVƏSİNƏ YOL ALAN ƏSGƏR ........ 36
44 GÜNLÜK VƏTƏN MÜHARİBƏSİNİN ŞƏHİDLƏRİ ........ 40
UCA ÇƏHİDLİK ZİRVƏN MÜBARƏK, ŞƏHİDİM! ........ 40
ASLAN KİMİ DÖYÜŞƏN ASLAN ZABİTİM ........ 44
MUROV QARTALI ........ 48
BAŞ TACIMIZ TACƏDDİN ........ 52
DÖRD BACININ ŞƏHİD QARDAŞI ........ 57

HƏRBÇİLƏR AİLƏSİ ........ 63
BİZ QƏLƏBƏ ÇALACAĞIQ ........ 65
DAYIM LAY-LAY ........ 66
DOĞMA SARVANIM MƏNİM ........ 67
MÜXTƏLİF İLLƏRDƏ YAZILAN ŞEİRLƏR ........ 69
QARABAĞ BAYATILARI ........ 70
BAŞ TACIMIZ TACƏDDİN ........ 72
ENMƏK ÜÇÜN QALXMAYIB ÜÇ RƏNGLİ BAYRAĞIMIZ ........ 73
ÇƏKİRƏM ........ 75
ŞAİR DOSTUM TOFİQ KƏRİMİN 60 İLLİK YUBİLEYİNƏ ........ 77
ŞƏHİDLƏRİMİZİN BOYA-BAŞA ÇATDIĞI ÇATDIĞI SARVAN KƏNDİ BU GÜN ........ 79
BÖYÜK VƏTƏN MÜHARİBƏSİ GÜNDƏLİYİ ........ 83
Unutmayaq ........ 100
SƏFƏRBƏRLİKLƏ ƏLAQƏDAR VƏTƏN MÜHARİBƏSİNDƏ İŞTİRAK EDƏN SARVAN İGİDLƏRİMİZ ........ 101
DAĞLIQ QARABAĞIN ERMƏNİLƏŞDİRİLMƏSİ ........ 103
TARİXİ FAKTLAR ........ 103
ŞAHƏNŞAH ........ 106
"Hər bir şəhid Vətəndir" kitabına sözardı ........ 114
Torpağa bağlı insan ........ 116

**FİRDOVSİ SARVANLI**
**(QASIMOV FİRDOVSİ QASIMAĞA OĞLU)**

# HƏR ŞƏHİD BİR VƏTƏNDİR

Bakı – 2021

Çapa imzalanmış 21.05.2021,
formatı 60x84 1/16,
f.ç.v. 7.5
kağız təbaşirli,
ofset çapı,
cambria qarnituru 17

Kitab
“APOSTROF-A“
nəşriyyatında ofset üsulu ilə çap olunmuşdur.
AZ1000, Azərbaycan, Bakı, H.Zərdabi 71A
E-mail: apostrof0706@gmail.com
Tel: (+99450 313 07 06)